# Sumqayıtda avtomobil körpüdən aşıb

Dəhşətli hadisədə 3 nəfər ölüb



**Bakı-Quba avtomobil yolunun Sumqayıtdan keçən hissəsində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.**

APA-nın yerli bürosunun məlumatına görə, qəza avtomobil yolunun Hacı Zeynalabdin qəsəbəsindən keçən hissəsində qeydə alınıb. "Mercedes" markalı avtomobil körpüdən aşıb. Qəza nəticəsində bir ailənin 3 üzvü - sürücü 1988-ci il təvəllüdlü Əliyev Seymur Fikrət oğlu, həyat yoldaşı 1999-cu il təvəllüdlü Ələkbərova Fidan Mövsüm qızı və onların övladları 2021-ci il təvəllüdlü Həmzə hadisə yerində ölüb.

Faktla bağlı araşdırma aparılır.



## Azərbaycanın 14 hərbçisi Türkiyədə məzun olub

**Azərbaycan Silahlı Qüvvələrinin 14 əməkdaşı Türkiyədə 2021-2022-ci il Təhsil və Təlim Dövrünü bitirərək məzun olublar.**

Bu barədə Azərbaycanın Türkiyədəki Səfirliyi məlumat yayıb.

*Qeyd olunub ki, buraxılış mərasimində səfirliyin hərbi attaşesi polkovnik Müşfiq Məmmədov və köməkçiləri iştirak edib.*


№ 31 (5553), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 18 fevral 2022-ci il (cümə)





# TIR sürücülərinin yolu bağlaması ilə bağlı cinayət işi açıldı

**Dünən səhər saatlarında yük avtomobilləri sürücüləri tərəfindən etiraz məqsədilə Heydər Əliyev Prospektinin bağlanması faktı ilə bağlı cinayət işi açılıb.**

Bu barədə Trend-in sorğusuna cavab olaraq Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli bildirib.

Qurum rəsmisi deyib ki, faktla bağlı Nərimanov Rayon İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 233-cü (İctimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) maddəsi ilə cinayət işi başlanılıb. İstintaq tərəfindən məsələdə əli olanların dairəsi müəyyənləşdirilir.



## İşğal təhlükəsi çox yüksəkdir

"Rusiya yaxın günlərdə Ukraynaya hücum edəcək"

**"Rusiya bir neçə gün ərzində Ukraynaya hücum edəcək". Bunu ABŞ Prezidenti Cozef Bayden xüsusi çıxışı zamanı bildirib.**

Onun sözlərinə görə, Rusiyanın Ukraynaya hücumunu gözləmək üçün bütün əsaslar var: "Bu, bir neçə gün ərzində baş verə bilər", - Bayden deyib.

Bayden müharibə riskinin çox yüksək olduğunu qeyd edib.

## İsrail səfiri İranın Azərbaycandakı səfirliyinə təşəkkür edib



**"Tvitimi bəyəndiyinə görə İran səfirliyinə təşəkkür edirəm".**

"Report" xəbər verir ki, bunu İsrailin Azərbaycandakı səfiri Corc Dik tviterdə yazıb.

"İranın tviterdəki qadağasını tezliklə aradan qaldıracağına ümid edirik ki, iranlı həmkarlarınız da bizim tvitlərimizdən həzz ala bilsinlər!", - səfir vurğulayıb.

*Qeyd edək ki, İran Azərbaycandakı səfirliyinin rəsmi tviter səhifəsi İsrail səfirinin tvitini bəyənib. Lakin C.Dikin bu barədə tvitindən sonra İran səfirliyi "layk"ı geri çəkib.*

# Yoluxma sayı mart ayında sürətlə azalacaq

Üzü yaya doğru sıfıra yaxın bir rəqəmlə üzləşəcəyik



**Ötən həftə dünyada COVID-19 infeksiyasına 16 milyon 97 min 642 yoluxma halı aşkar edilib. Bu da öncəki həftə ilə müqayisədə 19 faiz azdır. Həmçinin bu həftə ərzində ölüm hallarının sayı 4 faiz artaraq 74 min 494 nəfərə çatıb.**

Bu faktlar Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həftəlik epidemioloji bülletenində yer alıb. Məlumata görə, ötən həftə Qərbi Sakit okean regionunda yoluxma halları 19 faiz artsa da, digər bölgələrdə azalma müşahidə olunub. Yoluxma sayındakı azalmalar Cənub-Şərqi Asiyada 37, Amerikada 32, Afrikada 30, Avropada 16, Şərqi Aralıq dənizi regionunda isə 12 faiz təşkil edib.

Həftəlik ölüm sayı Şərqi Aralıq dənizi regionunda 38, Qərbi Sakit okean regionunda 27, Afrikada 14, Amerikada 5 faiz artıb. Həmçinin Avropada bu göstərici dəyişməz qalıb.

(səh.4)

## "İnsanları belə vəziyyətə gətirmək təhlükəlidir"

Fazil Mustafa: "Yüzlərlə problemli insanlar var, onların da TIR-ları yoxdur ki, yolu bağlasınlar"

(səh.3)

## Neftin bahalaşması yaxşı hal deyil

Qiymət artımları bazarda "köpüklər" yaradacaq

(səh.5)

## Müdafiə Nazirliyinin polkovniki həbs olundu

Hazırda istintaq tədbirləri davam etdirilir

(səh.3)

## "Qadında da günah olur"

Xuraman: "Kişi evdən çıxdısa, sənin deyil"

(səh.7)

# Müharibənin bir addımlığında...

Son sözü Putin deyəcək, iki senaridən biri işə düşəcək

**Ukrayna tərəfi separatçıların Luqansk əyalətində kəndləri atəşə tutduğunu bildirib. Vurğulanıb ki, uşaq bağçası, dəmiryol stansiyası və lokomotiv deposuna zərbələr endirilib.**

Sosial şəbəkələrdə yayılan görüntülər dağıntıların olduğunu təsdiqləyib. Rusiya və separatçılar isə Ukrayna ordusunu hücuma keçməkdə ittiham ediblər. Ekspertlərin qənaətincə, separatçıların olduğu bölgədə eskalasiyanın başlanması Moskvanın Donetsk və Luqanskla bağlı dövriyyəyə saldığı planının tərkib hissəsi sayılır.

(səh.5)



## Rekord sayda sağalan var

Daha 4449 nəfər koronavirusa yoluxub, 30 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4449 yeni yoluxma faktı qeydə alınıb, 9372 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 30 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 764 202 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 713 324 nəfər müalicə olunaraq sağalıb, 9157 nəfər vəfat edib, aktiv xəstə sayı 41 721 nəfərdir.*

## İçməli suyumuz Gürcüstana baxanda 5 dəfə natəmizdir

Ölkəmizin böyük şəhərlərində əhaliyə verilən suyu texniki su adlandırmaq olar



**Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin aparıcı məsləhətçisi Leyla Tağızadə "İçməli su, gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" mövzusundakı çıxışında bildirib ki, suda kimyəvi maddələr, bakterioloji və digər göstəricilər araşdırılıb:**

"Azərbaycanda suda orqanik keyfiyyət çox vaxt yaxşı olmur. İçməli su, gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" Milli Dövlət Standartı hazırlanıb. Bu standart 380 göstəriciyə görə hazırlanıb, həmçinin Avropa standartlarına uyğunlaşdırılıb".

(səh.3)



## QMİ-nin bu xalqa vurduğu zərbə hələ çox sonra bilinəcək

Turan İrfan: "İllərdir məscidlərə savadsız, cahil, irançı mollaları doldurublar"

(səh.4)

## Manaf Ağayev saxlanılıb

Müğənni işğaldan azad olunmuş ərazilərə qanunsuz yolla daxil olub



(səh.2)

# BMT nümayəndələri Qarabağa səfər edəcək

## Qiymətləndirmə missiyası həyata keçiriləcək

**BMT Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva nümayəndəsi yaxın vaxtlarda Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edəcək və orada qiymətləndirmə missiyası həyata keçiriləcək.**

Bu barədə Vladanka Andreevanın Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşündə bildirilib.

Spiker Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin inkişafına önəm verdiyini bildirib: "Bu il ölkəmizin BMT-yə üzv olmasının 30 illiyi tamam olacaq: "Azərbaycan həmişə BMT-nin çox fəal üzvü olub və təşkilatın müxtəlif fəaliyyət sahələrini əhatə edən qurumları ilə müsbət əməkdaşlıq əlaqələri qurub. Azərbaycanın 155 üzv dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına 2012-2013-cü illər ərzində qeyri-daimi üzv seçilməsi ölkəmizin beynəlxalq nüfuzunu nümayiş etdirir. Bu gün Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi həm də BMT-nin təşəbbüslərini dəstəkləyir və qlobal narahatlıq doğuran məsələlər üzrə görülən işlərə öz töhfəsini verir. 2020-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü təklif əsasında dövlət və hökumət başçıları səviyyəsində koronavirus (COVID-19) pandemiyası ilə mübarizə üzrə BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyasının çağırıldığını xatırladan spiker bu tədbirin əhəmiyyətini vurğulayıb.



Ağıllı şəhər, ağıllı kənd layihələri qonaqda böyük təəssürat yaradıb

**Səmimi görüş üçün təşəkkürünü bildirən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva Azərbaycanın BMT ilə fəal əməkdaşlığından məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan BMT üçün mühüm məsələlərdə qlobal liderliyi öz üzərinə götürən vacib tərəfdaşdır.**

BMT nümayəndəsi yaxın vaxtlarda Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edəcəklərini və orada qiymətləndirmə missiyası həyata keçirəcəklərini diqqətə çatdırıb. O, Azərbaycanın işğaldan azad edilmiş ərazilərin bərpası barədə planlarının, xüsusilə də ağıllı şəhər, ağıllı kənd layihələrinin onda böyük təəssürat yaratdığını qeyd edib.

Dayanıqlı inkişaf məqsədlərindən danışan qonaq bunun Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının bərpasında mühüm rol oynadığını diqqətə çatdırıb, ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası və insanların geri qayıdışının təmin edilməsi barədə fikirlərini bölüşüb.

Vladanka Andeeva BMT və Azərbaycan arasında münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib və bunun üçün bütün səylərini səfərbər edəcəyini vurğulayıb.

*Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.*

# Bu şəxslərə "Müharibə veteranı" adı verilib

## Onlara həm də Prezident təqaüdü təyin edilib



**Prezident İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli Sərəncamının icrası işləri çərçivəsində Daxili İşlər Nazirliyi, o cümlədən Nazirliyin Daxili Qoşunları tərəfindən də 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövr ərzində ölkəmizin ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş hərbi qulluqçularına "Müharibə veteranı" adı verilib.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Nazirlər Kabineti ilə razılaşdırılmış siyahı əsasında "Müharibə veteranı" adı verilmiş həmin şəxslərə dair məlumatlar nazirliyin "Zəfər" altsisteminə daxil edilib. Bundan sonra isə Nazirlik tərəfindən onlara Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü (80 manat) təyin edilib. Təqaüd təyinatı həmin şəxslərə müraciətləri olmadan, heç bir sənəd tədim edilmədən, e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Təyinat 2022-ci ilin 1 yanvarından rəsmiləşdirilib və həmin vaxtdan hesablanaraq ödənilir.

Bununla da artıq 5 qurum (Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Ədliyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Daxili İşlər Nazirliyi) üzrə hərbi qulluqçulara "Müharibə veteranı" adı verilərək Prezident təqaüdü təyin olunub.

Hazırda digər qurumlar (Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və s.) üzrə də qeyd olunan adın verilməsi və təqaüd təyinatı üçün müvafiq işlər aparılır. Proses yaxın günlərdə yekunlaşacaq.

Müharibə veteranı kimi Prezidentin aylıq təqaüdü təyin edildiyi anda şəxsin adında olan telefon nömrəsinə bu barədə, habelə təqaüd kartını hansı bankdan əldə edəcəyinə dair SMS göndərilir.



# Manaf Ağayev saxlanılıb

## Müğənni işğaldan azad olunmuş ərazilərə qanunsuz yolla daxil olub

**Dünən sosial şəbəkələrdə müğənni Manaf Ağayevin işğaldan azad edilmiş ərazilərə səfər etməsini əks etdirən görüntülər yayılıb.**

Daxili İşlər Nazirliyi Mətbuat Xidmətinin rəisi polis polkovniki Ehsan Zahidov bildirib ki, görüntülər yayıldıqdan dərhal sonra polis əməkdaşları tərəfindən araşdırmalara başlanılıb.

Araşdırma zamanı Manaf Ağayevin artıq Bakı şəhərində olduğu müəyyən edilib:

"Müğənni Manaf Ağayev və onun yanındakı vətəndaş polis idarəsinə dəvət olunublar. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, onlar işğaldan azad olunmuş ərazilərə qanunsuz yolla daxil olublar.

Bununla bağlı onların izahatları alınıb. Onlar saxlanılıb. Hazırda məsələ ilə bağlı araşdırma aparılır. Araşdırmanın nəticəsindən asılı olaraq məsələyə hüquqi qiymət veriləcək".

# TƏBİB-in Aparat rəhbəri işdən çıxarılıb, vəzifə ləğv edilib

TƏBİB Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

**"Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) Aparat rəhbəri vəzifəsi ləğv edilib.**

Bu barədə TƏBİB-dən Trend-in sorğusuna cavab olaraq bildirilib.

Qeyd olunub ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev əmr imzalayıb.

Əmrə əsasən TƏBİB-də struktur dəyişikliyi edilib. TƏBİB-in Aparat rəhbəri vəzifəsində çalışan Gündüz Əbdülov qurumda başqa vəzifəyə təyin edilməyib.

# Hərbi Hava Qüvvələrində MiQ-29-ların təlimləri keçirilib

## Təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib



**Döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin (HHQ) təlim uçuşları keçirilib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, senariyə əsasən MiQ-29 tipli təyyarələrlə kiçik və orta hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra edilib.

Təlimlər zamanı pilotlar tərəfindən şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınmaqla onun yerüstü hədəflərinin koordinatlarının təyin edilməsi və hava döyüşlərinin aparılması üzrə tapşırıqlar məşq olunub.

Təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# 12 nəfər beynəlxalq axtarışa verilib

## Prokurorluq Qaradağlı qətliamı ilə bağlı məlumat yaydı

**Qaradağlı faciəsi ilə bağlı Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq tədbirləri davam etdirilir.**

Bunu Baş Prokurorluğun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov Trend-ə açıqlamasında deyib.

K.Zeynalov bildirib ki, Azərbaycan Respublikasının ərazilərində qanunsuz fəaliyyət göstərmiş erməni separatçı rejiminin silahlı hərbi birləşmələri və Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən yerli azərbaycanlı əhaliyə qarşı törədilmiş sülh və insanlıq əleyhinə, habelə müharibə və digər cinayətlərin araşdırılması məqsədilə istintaq-əməliyyat qrupu yaradılıb. Cinayət işi üzrə Qaradağlı epizodu ilə bağlı bu gündək sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətlərini törətmiş 12 şəxs Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə beynəlxalq axtarışa verilib.



Hazırda Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq tədbirləri davam edir.

Qeyd edək ki, erməni silahlı birləşmələri Xocavənd rayonunun Qaradağlı kəndində yaşayan 200-dən artıq azərbaycanlı ailəsini məcburi hərəkətlərlə didərgin salmaq məqsədilə 1988-ci ilin fevralından başlayaraq 1992-ci il fevralın 14-dək müxtəlif vaxtlarda yaşayış yerlərinə və həyətyanı sahələrinə mütəmadi olaraq basqınlar edərək evlərini yandırıb qarət edib, nəticədə kəndin azərbaycanlı milliyyətindən olan 1008 nəfər əhalisindən 941-ni beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan doğma yerlərindən didərgin salıblar.

Erməni silahlı birləşmələrinin üzvləri 1992-ci il fevralın 14-17-də Xocavənd rayonunun Qaradağlı kənd sakinlərindən 9-u azyaşlı, 10-u qadın, 14-ü 60 yaşdan yuxarı, 34-ü kişi cinsindən olan cavanlar olmaqla 67 nəfəri öldürüb, 2 nəfərə həyat üçün təhlükəli olan sağlamlığa ağır zərərvurmaya aid xəsarətlər yetirib, 49 nəfəri girov götürüblər. Eyni zamanda, yaşayış binaları və dövlət obyektləri qarət edilərək yandırılıb.



# Ölümlə təhdid olunur

## Tahir Kərimli hüquq-mühafizə orqanlarına müraciət edib

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli ölümlə hədələnməsi ilə bağlı hüquq-mühafizə orqanlarına müraciət edib.**

Bu barədə APA-ya deputatın qardaşı Fəxrəddin Kərimli məlumat verib.

F. Kərimli deyib ki, dünən deputatın Bakı şəhəri, Səbail rayonundakı evinin qapısına ölüm təhdidi yer alan yazılı kağız qoyulub. O, Tahir Kərimlinin gec də olsa, hüquq-mühafizə orqanlarına müraciət etdiyini bildirib.

F. Kərimli hazırda T. Kərimlinin ürəyində problem olduğunu, ona dərman verildiyini deyib.

*Qeyd edək ki, T. Kərimli dünən "Facebook" üzərindən canlı yayımda ölümlə təhdid edildiyini bildirib. Daha sonra video onun səhifəsindən silinib.*

# "Kəlbəcər gözəl görünürdü"

## Xarici səyyahlar: "Ciddi dağıntılara şahid olduq"



**"Tikinti işlərinin başa çatmasından sonra Şuşanın daha da gözəl görünəcəyinə əminəm".**

**Bunu işğaldan azad edilmiş ərazilərə səfər edən italiyalı səyyah Nikola Koratella APA-ya açıqlamasında deyib.**

O, şəhərdə ciddi dağıntılara şahid olduğunu, bununla belə səfərinin olduqca maraqlı və xoş təəssüratla keçdiyini qeyd edib: "Biz Şuşada bir çox dağıntı gördük, bu, çox pis idi. Lakin şəhərdə gözəl yerlər də var idi. Məsələn, biz məscidi və Şuşa qalasını gördük. Həqiqətən də səfər etməyimizə dəydi. Mən əminəm ki, tikinti işləri başa çatdıqdan sonra Şuşa daha da gözəl görünəcək. Biz Laçın dəhlizindən də keçdik".

**Avstriyalı səyyah isə Laçın dəhlizinin ətrafındakı yaşayış məntəqələrinin olduqca acınacaqlı vəziyyətdə olduğunu, ətrafın boş və dağıntılarla dolu olduğunu deyib:** "Laçın dəhlizi olduqca boş idi. Biz küçələrdə, evlərdə insanları görmədik. Ətrafda sadəcə küçə itləri var idi. Evlərin pəncərələri də sınıq idi. Biz Kəlbəcərə də getdik. Ora həqiqətən də çox gözəl görünürdü. Qarla örtülü dağların əla mənzərəsi var idi. Amma havada dondurucu soyuq var idi. Günəş çıxanda havanın temperaturu təxminən mənfi 10 dərəcə idi. Amma Kəlbəcər həqiqətən də gözəl görünürdü".

# Azərbaycandan növbəti qrup Ümrə ziyarətinə yola düşüb



**Azərbaycandan növbəti qrup Ümrə ziyarətinə yola düşüb. Qrup 40-a yaxın zəvvar daxil olub.**

Bunu Trend-in sualını cavablandırarkən Qafqaz Müsəlmanları İdarəsinin Xarici əlaqələr şöbəsinin müdiri Vüsal Cahangiri deyib.

O qeyd edib ki, mart ayında da ziyarət davam edəcək və növbəti ay 10-17, 19-26 və 24-31 mart tarixlərində Ümrə ziyarətlərinin həyata keçirilməsi nəzərdə tutulub.

*Qeyd edək ki, Ümrə ziyarəti üçün qiymət təxminən 1440 dollar təşkil edir. Ziyarət yerlərinə yaxın və daha rahat hotellərin daxil edildiyi paketin qiyməti isə 1630 dollardır.*

# Qusarda dəm qazından bir ailənin 5 üzvü ölüb

## Hadisə gecə saatlarında şəhər ərazisində qeyd alınıb

**Qusar rayonunda 5 nəfər dəm qazından boğulub.**

Hadisə şəhər ərazisində 2 mərtəbəli yaşayış binasında qeydə alınıb. Oradakı evlərdən birində beş nəfərin meyiti tapılıb.

Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub.

İlkin ehtimala görə, onlar dəm qazından boğularaq ölüb. Ölənlərin bir ailənin üzvləridir.




Qusarda dəm qazından boğularaq ölən ailə üzvlərinin adları açıqlanıb.

APA-nın şimal bürosunun verdiyi xəbərə görə, hadisə Qusar şəhərinin Heydər Əliyev prospektində yerləşən 2 mərtəbəli yaşayış binasının mənzilində qeydə alınıb.

Dəm qazından boğularaq ölənlərin Qusar şəhər sakinləri - 1987-ci il təvəllüdlü Şıxov Rusiz Şıxəli oğlu, 1993-cü il təvəllüdlü Şıxova Əminə Məhsim qızı və onların övladları 2012-ci il təvəllüdlü Osman, 2017-ci il təvəllüdlü İmarə, 2013-cü il təvəllüdlü Sumeyan olduğu bildirilib.

*Faktla bağlı Qusar rayon Prokurorluğunda cinayət işi açılıb. Araşdırmalar davam etdirilir.*

# Əlibaba Məmmədovun oğlu vəfat etdi



**Xalq artisti Əlibaba Məmmədovun oğlu dünyasını dəyişib.**

67 yaşlı Seyran Məmmədov xərçəng xəstəliyindən əziyyət çəkirdi.

S.Məmmədov bu gün səhər saatlarında evində vəfat edib.

*Xatırladaq ki, Xalq artistinin qızı ötən il COVID-19 virusundan rəhmətə getmişdi.*

# Rusiya "sülhməramlıları" torpaqlarımızdan çıxarılmalıdır

## Çünki Kreml açıq-aşkar Azərbaycan əleyhinə fəaliyyət göstərir



"Son aylarda Rusiya "sülhməramlıları"nın nəzarətində olan bölgədə yaşanan olayların hamısı Azərbaycanın maraqlarına ziddir"

**Rusiya sülhməramlılarının müvəqqəti səlahiyyət zonasında qondarma rejimin "təhlükəsizlik şurasının katibi", cinayətkar Vitali Balasanyanın təşəbbüsü ilə "hərbi təlimlər" keçiriləcək. Separatçıların Azərbaycan torpaqlarında "hərbi təlimlər" keçirməyə cəhd etməsi erməni həyasızlığının növbəti faktıdır.**

Bu, açıq-aşkar hərbi avantüra və təxribatdır. Rusiya "sülhməramlı" kontingenti öz mandatının çərçivələrini anlamaqda çətinlik çəkir. "Sülhməramlıların" əsas missiyası iki xalqın sülh və əmin-amanlıq içərisində yaşamasını təmin etməkdir. Yerləşdiyi ərazidə yerli icmalardan birinin hərbi təlim keçirməsinə göz yummaq sülhməramlı missiyanın mahiyyətinə ziddir. Ermənilərin Qarabağda davam edən hərbi təxribatları, ilk növbədə, Rusiyanın özünün imicini ciddi şəkildə zədələyir. Moskva nəhayət anlamalıdır ki, Rusiya "sülhməramlıları"nın Qarabağda gələcək mövcudluğu Azərbaycan tərəfinin mövqeyi ilə şərtlənəcək. Çünki torpağın sahibi və qalib tərəf Azərbaycandır. Azərbaycan özünün suveren ərazilərində antiterror əməliyyatları həyata keçirmək hüququna sahibdir və bu hüququ heç bir formada məhdudlaşdırmaq olmaz. Ekspertlərin fikrincə, qondarma rejimin hərbi təlim keçirmək cəhdi regionda onsuz da kövrək olan sülh mühitini ciddi şəkildə zədələyəcək.

**Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, separatçıların qanunsuz əməlləri və Rusiya "sülhməramlılarının" onlara imkan yaratması Azərbaycanın suverenliyini və təhlükəsizliyini təhdid edir.** Ekspert vurğulayıb ki, 10 noyabr birgə bəyannaməsinə əsaslansaq, Rusiya sülhməramlıları belə bir fəaliyyətə qətiyyən imkan verməməlidir: "Qondarma rejimin "qanun" hazırlaması, səngər qazması, təlimlər keçirməsi, maşınlarımızın yolunu kəsməsi səbrimizi daşırır. Qıcıq doğuran, narazılığa səbəb olan hadisələrə rəsmi cavab verilməli, sonuncu dəfə xəbərdarlıq edilməlidir. Son aylarda Rusiya "sülhməramlıları"nın nəzarətində olan bölgədə yaşanan olayların hamısı Azərbaycanın maraqlarına ziddir. Rusiya bu kimi neqativ hadisələrə meydan verməklə Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanması prosesinə zərbə vurur. Moskva qəsdən vəziyyəti gərginləşdirərək tərəflərə rəsmi Bakıya təsir imkanını əlində saxlamaq istəyir. Rusiya "sülhməramlılarının" torpaqlarımızdan çıxarılması üçün ciddi addımlar atılmalıdır. Çünki Kreml açıq-aşkar Azərbaycan əleyhinə fəaliyyət göstərir".

**İsmayıl Qocayev**



# 200 milyon dollara ehtiyac var

**Ermənistan tərəfi yaxın vaxtlarda Azərbaycanla Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun tikintisinə başlamağa imkan verəcək hüquqi sənəd imzalamaq niyyətində olduğunu açıqlayıb.**

Zəngəzur dəhlizinin işə düşməsi üçün təxminən 3 il zaman lazımdır

Baş nazir Nikol Paşinyan hökumətin iclasında bildirib ki, hazırda Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun Ermənistandan keçən hissəsinin tikintisi ilə bağlı konkret işlər görülür: "Texniki işlərə başlanılıb. Ümid edirik, əldə olunmuş razılaşmalar yaxın gələcəkdə sənəd şəklində öz əksini tapacaq və proses tam inkişaf edəcək". Paşinyanın sözlərinə görə, hökumət Şimal-Cənub strateji avtomobil yolunun Qarakilsə-Qacaran (Sisian-Kacaran) hissəsinin tikintisinə başlamaq üçün tender elan edəcək: "Əlbəttə, siyasi razılaşmalar olarsa, Şimal-Cənub yolu da Azərbaycan, Ermənistan və Türkiyəni birləşdirə bilər".

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib ki, Azərbaycanla Ermənistan arasında dəmir yollarının tikintisi ilə bağlı əsas problem İrəvanın maliyyə çatışmazlığı ilə bağlıdır.** Analitik vurğulayıb ki, Zəngəzur dəhlizinin işə düşməsi üçün təxminən 3 il zaman lazımdır: "Dəhlizin inşası üçün 200 milyon dollara ehtiyac var. Hazırda prosesi dalana dirəyən əsas səbəb budur. Amma yaxın vaxtlarda problemin həll olunacağı şübhəsizdir. Hətta Ermənistan tərəfi investisiya ilə bağlı Azərbaycana müraciət edə bilər. Bu da gözləniləndir. Dəmiryolunun işə düşməsi Azərbaycandan daha çox Ermənistana lazımdır. Ona görə İrəvan da bu layihənin gecikdirilməsini istəmir".

**İsmayıl**



# Müdafiə Nazirliyinin polkovniki həbs olundu

## Hazırda istintaq tədbirləri davam etdirilir

**Müdafiə Nazirliyində aşkarlanan maliyyə pozuntuları ilə bağlı daha bir hərbçi həbs edilib.**

Lent.az-ın əldə etdiyi məlumata görə, həyata keçirilən əməliyyat tədbirlərinin davamı olaraq Hərbi Hava Qüvvələrinin maliyyə xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov da tutulub.

Ona Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı), 179.4-cü (mənimsəmə - xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 341.2.1-ci (vəzifə səlahiyyətlərini aşma, bir qrup şəxs tərəfindən törədildikdə) və 341.2.3-cü (vəzifə səlahiyyətlərini aşma, ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilməklə barəsində məhkəmənin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, bir neçə gün əvvəl Müdafiə Nazirliyində həyata keçirilən həbslərlə bağlı xəbər yaymışdıq.

Belə ki, nazirlikdə qeydə alınan maliyyə pozuntuları ilə Maliyyə İdarəsinin rəisi Rafael Xəlilov, "N" hərbi hissənin maliyyə şöbəsinin rəisi Fəzail Əliyev, Quru Qoşunların maliyyə idarəsinin rəisi Bayram Bayramov və maliyyə idarəsinin zabiti Əlizadə Vüsal Ədalət oğlu həbs ediliblər.

Ümumi zərərin 10 milyon manatdan çox olduğu bildirilir.

# Kürdəmirdə Rusiya vətəndaşı kanalda boğularaq ölüb

**Kürdəmirdə avtomobil su kanalına düşüb.**

**Fövqəladə Hallar Nazirliyinin xəbərinə görə, Sor-Sor kəndi ərazisində içərisində 1 nəfərin olduğu ehtimal edilən "Toyota" markalı minik avtomobilinin Yuxarı Şirvan su kanalına düşməsi barədə məlumat daxil olub.**



**Məlumatla əlaqədar FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu axtarış-xilasetmə tədbirlərinin görülməsi üçün əraziyə cəlb olunub.**

**Kürdəmirdə kanala düşən avtomobil sudan çıxarılıb.**

**APA-nın yerli bürosunun xəbərinə görə, rayonun Sor-Sor kəndi ərazisində idarəetmədən çıxaraq Şirvan su kanalına düşən "Toyota" markalı minik avtomobili FHN-nin əməkdaşları tərəfindən kanaldan çıxarılıb, maşının içərisində meyit aşkarlanıb. Meyiti tapılan şəxsin Rusiya vətəndaşı, 27 yaşlı Nimanikin Vadim Andreyeviç olduğu bildirilir. Meyiti aidiyyəti üzrə təhvil verilib.**

**Fakt araşdırılır.**



**Fazil Mustafa:** "Yüzlərlə problemli insanlar var, onların da TIR-ları yoxdur ki, yolu bağlasınlar"

# "İnsanları belə vəziyyətə gətirmək çox təhlükəlidir"

**Dünən şəhərin Heydər Əliyev prospektində yük maşınları tərəfindən etiraz məqsədilə yol bağlanılıb.**




Nərimanov rayon ərazisində 4 yük avtomobilinin sürücüləri yolu bağlayaraq Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Anar Rzayevə və şöbə müdiri Malik Əliyevə etirazlarını bildiriblər. Yük avtomobillərinin sahibləri dövlət qurumundan icazə vərəqələrinin verilməsini tələb ediblər. Bildiriblər ki, icazə vərəqələrinin verilməməsi səbəbindən gətirdikləri malları xarab olur.

Yolun bağlanması ilə bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev təcili iclas keçirib. İclasda nazirliyin yanında fəaliyyət göstərən Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) İdarə Heyətinin sədri Anar Rzayev və bir sıra rəhbər şəxslər iştirak ediblər. Verilən məlumata görə, Rəşad Nəbiyev baş verən hadisəyə görə DANX-nin sədri Anar Rzayevə xəbərdarlıq edib, qurumun daşımaların tənzimlənməsi şöbəsinin müdiri Malik Lətif oğlu Əliyevi isə vəzifəsindən uzaqlaşdırıb.

**Sözügedən hadisə ilə bağlı "Şərq"ə danışan millət vəkili Fazil Mustafa bildirib ki, ölkədə belə qurumların sayı çoxdur:**

"Problemi olan yüzlərlə insan var. Onların da TIR-ları yoxdur ki, yolu bağlasınlar. Bunlar deyirlər, amma səslərini eşidən yoxdur. Bürokratik mexanizm o qədər sərtləşib ki, insanlar problemlərini həll edə bilmir. Gör nə həddə çatdırırlar ki, sürücülər TIR-ları saxlayıb deyir ki, mən müflis olmuşam. Bu təkcə bu qurumla bağlı deyil. Bütün qurumlar bu vəziyyətdədir. Ona görə bu məsələ ilə bağlı ciddi şəkildə ölçü götürülməlidir".

**Millət vəkili hesab edir ki, vətəndaşları bu vəziyyətə gətirmək düzgün deyil:**

"İnsanlar adi həyətinə, pay torpağına, yaxud hansı bir mülkünə sənəd ala bilir. İnsanların o qədər problemi var ki... Adi məsələləri o qədər mürəkkəbləşdiriblər, rüşvətin mexanizmini o qədər sərtləşdiriblər ki.. Bunun sonu belə olacaq da. İnsanı bu həddə gətirmək olarmı? Bəs, bu insan nə etsin? Bir tikə çörək qazanmaq üçün bütün günü ayaq üstə, yollarda, maşının içində, fəlakətli vəziyyətdə yorğun insanları hələ 3-4 gün gözlədirlər, malını xarab edirlər. Heç kimin də vecinə deyil. Bəlkə də araşdırsanız, görərsiniz ki, həmin mal monopoliyadadır, ona görə onlara icazə verilmirdi. Belə şey olarmı? Avropa, Türkiyə, İrana baxın, oralarda belə şey yoxdur. Hesab edirəm ki, vətəndaşı bu qədər divara dirəyib belə acınacaqlı vəziyyətə gətirmək çox təhlükəlidir. Biz bu gün də onun nəticəsini gördük".

**Çimnaz Şahlar**

# İçməli suyumuz Gürcüstana baxanda 5 dəfə natəmizdir

## Ölkəmizin böyük şəhərlərində əhaliyə verilən suyu texniki su adlandırmaq olar

**Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin aparıcı məsləhətçisi Leyla Tağızadə "İçməli su, gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" mövzusundakı çıxışında bildirib ki, suda kimyəvi maddələr, bakterioloji və digər göstəricilər araşdırılıb:**

"Azərbaycanda suda orqanik keyfiyyət çox vaxt yaxşı olmur. İçməli su, gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" Milli Dövlət Standartı hazırlanıb. Bu standart 380 göstəriciyə görə hazırlanıb, həmçinin Avropa standartlarına uyğunlaşdırılıb".

**Sağlam Cəmiyyət Hərəkatının eksperti, sosioloq Elçin Bayramlı "Şərq"ə açıqlamasında bildirib ki, ölkədə suyun keyfiyyəti, təmizliyi xeyli dərəcədə aşağıdır:**

"Kimyəvi və bioloji çirklənmə yüksək səviyyədədir. Avropada bəlkə də ən pis içməli su bizdədir. Hətta bizimlə eyni regionda yerləşən qonşu ölkədə - Gürcüstanda da yaxşıdır. Tbilisidə binalara verilən içməli suyun həm TDS, həm də pH göstəricilərini yoxlamışıq. Bakıya nisbətən su 5 dəfə daha təmizdir. Ölkəmizin böyük şəhərlərində əhaliyə verilən suyu isə texniki su adlandırmaq olar. Bu səbəbdən əhalinin nisbətən imkanlı hissəsi mütləq şəkildə evlərinə su filtri aparatları quraşdırıb, digərləri isə mağazalardan su almağa üstünlük verir. Heç kim bu bərbad suyu uşaqlarına içirtməz. Hətta qaynatmağın belə faydası yoxdur. Qaynama ağır metalları, xloru və kimyəvi maddələri suyun tərkibindən çıxara bilmir. Əksinə, faydalı mineralları da öldürür. Bu artıq ölü sudur.

"Standart qəbul etmək müsbət haldır. Amma ölkədə minlərlə standart var, hansına riayət olunur ki?"



Suyu yaxşı təmizləyə bilmədikləri üçün normadan 5-6 dəfə çox xlor vurulur ki, yoluxucu xəstəliklər yayılmasın. Belə olduqda isə xlor orqanizm, sağlamlıq üçün daha təhlükəlidir. Ümumiyyətlə, xəstəliklərin 80 faizinin çirkli sudan yarandığı hesab edilir. Demək olar ki, Azərbaycanda suda yod da yoxdur".

**Ekspert vətəndaşlara suyu ya filtrdən keçirib, ya da mağazadan alıb, istifadə etməyi məsləhət görür:**

"Lakin filtrdən keçən bu suların mineral tərkibi olmadığından həmin suya bir neçə limon və hər litrinə 2 damcı olmaqla apteklərdə satılan ionlaşdırılmış yod əlavə etsinlər. Standart qəbul etmək müsbət haldır. Amma ölkədə minlərlə standart var, hansına riayət olunur ki? Əsas məsələ standartlara əməl edilməsinə nəzarətdir. Əks təqdirdə yüz standart qəbul edilsə də, xeyri yoxdur. İçməli su ehtiyatları düzgün istismar edilməli, əhaliyə verilən su ilə yaşıllıqlar, zavodlar, fabriklər və moykalarda istifadə edilən su fərqli olmalıdır. İçməli su təsərrüfatı sistemi yenidən qurulmalı, çürümüş borular dəyişdirilməli, su anbarları mütəmadi olaraq təmizlənməlidir. Sumqayıtda yaradılan su təmizləyici zavod kimi digər zavodlar da yaradılmalıdır ki, böyük şəhərlərə təmizlənmiş su verilsin. Əks halda əhali arasında xəstəliklərin sayı artacaq".

**Sücayət Mehti**

# ATƏT təcili toplanır

## Rusiyaya qarşı sanksiyalar planı işə düşə bilər



**Fevralın 18-də ATƏT-in Daimi Şurasının və ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunun birgə xüsusi iclası keçiriləcək.**

Görüşə Polşa sədrlik edəcək. İclas Ukrayna XİN-in müraciəti əsasında baş tutacaq. Toplantıda Rusiya ilə Ukrayna sərhədindəki durum müzakirə olunacaq. Qeyd edək ki, hazırda ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumuna Azərbaycan sədrlik edir.

**İclasda müzakirə olunacaq əsas mövzuları "Şərq"ə açıqlayan BDU-nun professoru, politoloq Əlimusa İbrahimov bildirib ki, Avropa ölkələri Rusiyanın Ukraynaya təcavüz edəcəyini düşünür:**

"Görüşün keçirilməsində əsas məqsəd Rusiyanı Ukraynaya hücumdan çəkindirməkdir. NATO da Rusiyaya təzyiq etməyə çalışır ki, Ukraynaya yeni hücum olmasın. Görüşdə müəyyən sanksiyalar planı ortaya qoyulacaq. Moskva hücuma keçsə, Qərb ölkələri Rusiyaya sanksiyalar tətbiq edəcək. Əsas məqsəd Avropa ölkələrinin təhlükəsizliyini sığortalamaqdır. Həmçinin ABŞ Avropa dövlətlərini qorxudur ki, Rusiya Ukraynanı işğal edərsə, növbəti onlar olacaq".

**Xanlar ƏLİBƏY**



Hətta sürətlə düşəcəyini düşünürəm. Üzü yaya doğru hər halda sıfıra yaxın bir rəqəmlə üzləşəcəyik”.

**Həkim-infeksionist Nicat Əzimli isə bildirib ki, ”Omikron”un ilk aşkarlandığı ölkənin Cənubi Afrika olduğu hər birimizə məlumdur:**

”Digər ölkələrdə də oxşar dinamika müşahidə olunur. Təbii ki, fərqliliklər də mövcuddur. Ölkə üzrə orta statistikaya görə, yoluxma 4-6 həftə ərzində pik həddə çatır. Daha sonra isə qısa müddətdə sürətlə azalmağa doğru gedir. Bu, ”Omikron”un xarakteristikasıdır. Azərbaycanda da bu variant yanvar ayının ortaları, təxminən üçüncü həftəsi aşkarlanıb. Ən yüksək həddə çatması təqribən indiki tarixlərə və maksimum bundan sonrakı həftəyə təsadüf edir. Fevral ayının sonu, martın əvvəllərindən yoluxma səngiməlidir. Amma bu, sadəcə bir təxmin və ”Omikron” ştammının üzə çıxdığı ölkələrdə gedişat dinamikasıdır. Müxtəlif faktorların da təsiri vəziyyəti dəyişə bilər. Təhsil müəssisələri, mərasimlər kimi yoluxma artımına şərait yaradacaq müəyyən qərarlar azalmanı bir az gecikdirə, ləngidə bilər. Bundan əlavə, yeni mutant variantın yarana bilməsi ehtimalını da nəzərə almaq lazımdır. Əgər olarsa, ”Omikron” kimi sürətli şəkildə yayılar”.

# Yoluxma sayı mart ayında sürətlə azalacaq

## Üzü yaya doğru sıfıra yaxın bir rəqəmlə üzləşəcəyik

**Ötən həftə dünyada COVID-19 infeksiyasına 16 milyon 97 min 642 yoluxma halı aşkar edilib. Bu da öncəki həftə ilə müqayisədə 19 faiz azdır. Həmçinin həftə ərzində ölüm hallarının sayı 4 faiz artaraq 74 min 494 nəfərə çatıb.**

Bu faktlar Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həftəlik epidemioloji bülletenində yer alıb. Məlumata görə, ötən həftə Qərbi Sakit okean regionunda yoluxma halları 19 faiz artsa da, digər bölgələrdə azalma müşahidə olunub. Yoluxma sayındakı azalmalar Cənub-Şərqi Asiyada 37, Amerikada 32, Afrikada 30, Avropada 16, Şərqi Aralıq dənizi regionunda isə 12 faiz təşkil edib.

Həftəlik ölüm sayı Şərqi Aralıq dənizi regionunda 38, Qərbi Sakit okean regionunda 27, Afrikada 14, Amerikada 5 faiz artıb. Həmçinin Avropada bu göstərici dəyişməz qalıb. Cənub-Şərqi Asiya regionunda isə 9 faiz azalıb.

Xatırladaq ki, 2020-ci ilin martında Ümumdünya Səhiyyə Təşkilatı COVID-19 infeksiyasının yayılmasını pandemiya elan edib. Pandemiyanın statistikasını aparan ”Worldometer” portalının məlumatına əsasən, indiyədək dünyada koronavirusa yoluxanların sayı 416 milyon 440 min nəfəri ötüb, ölənlərin sayı 5 milyon 858 min 925 nəfərə çatıb. 339 milyon 357 min nəfər bu xəstəlikdən sağalıb.

**Həkim-infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında bildirib ki, hazırda yoluxma artıq pik həddə çatıb:**

”Bundan sonra yoluxma sayı azalmağa başlayacaq. Böyük ehtimalla mart ayından enmələr müşahidə ediləcək.

**Sücayət Mehti**

# AMEA sovet məntiqindən uzaqlaşa bilmir

## Şahlar Əsgərov: “Elm, Texnologiya və Sənaye Nazirliyi bir qurumda birləşməlidir”



**Son vaxtlar sərt tənqid olunan qurumlardan biri də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və onun nəzdində fəaliyyət göstərən institutlardır.**

Cəmiyyətdə AMEA ilə bağlı ikili münasibət mövcuddur. Bir tərəf sözügedən qurumun ləğv olunmasını, digər tərəf isə islahatların aparılmasını iddia edir.

AMEA-nın keçmiş prezidenti Ramiz Mehdiyev də bacarıqsız fəaliyyətinə görə tənqid edilir. Nəhayət sonuc R.Mehdiyevin istefası ilə nəticələndi.

**Yaranmış vəziyyətlə bağlı mövqeyini ”Şərq”ə açıqlayan təhsil üzrə mütəxəssis, professor Şahlar Əsgərov bildirib ki, AMEA indiki demokratik cəmiyyətə uyğun gəlmir:** ”Qurum Sovetin vaxtında, 1945-ci ildə fəaliyyətə başlayıb. Sovet dövləti administrativ dövlət idi. AMEA-da administrativ qurum kimi yaradıldı. Əsas məqsəd dəqiq və təbiət elmlərinin inkişafı olub. Sovet dağılandan sonra yenidən rekonstruksiya getdi. Akademiyanı Təhsil Nazirliyi ilə birləşdirib Elm və Təhsil Nazirliyi yaratdılar. Akademiyanın institutları universitet fakültələriylə inteqrasiya etdi. Çox az respublikalarda Akademiya qalmışdı, biri də biz idik. Akademiya sovet dövlətinin məntiqinə uyğun biçilmişdi”.

**Professor Akademiyanın belə formada saxlanılmasının tərəfdarı olmadığını söyləyib:**

”Azərbaycan elmi sənayedə, texnikada özünü göstərə bilmir. Elmi nəticələr formula, düstur formasındadır. Sənayedə tətbiq etmək üçün texnoloq lazımdır. Gərək texnoloq soyuq elmi nəticələri texnoloji reseptlərə çevirsin, nəticədə sənayedə məhsul buraxılsın. Bizdə bu yoxdur, lakin inkişaf etmiş ölkələrdə mövcuddur. Ona görə Azərbaycanın dəyərli alimləri xaricə gedir. Elm, Texnologiya və Sənaye Nazirliyi bir qurumda birləşməlidir. Bunun sayəsində dünya arenasına çıxa bilərik”.

**Aygün Tahir**

# Mexanizm aydınlaşmalıdır

## Nəzirdən vergi tutulması mümkün görünmür




**“Dini etiqad azadlığı haqqında” qanunun 18-ci maddəsinə təklif olunan dəyişiklik cəmiyyətdə hələ də müzakirə olunmaqdadır. Hətta mövzunu lağlağı obyektinə çevirənlər də az deyil. Məlum dəyişikliyə görə, Azərbaycanda dini qurumlar ianə edilmiş pul vəsaitlərini, toplanan nəzirləri elektron ödəmə sistemləri vasitəsilə qəbul edəcək.**

Yəni bundan sonra dini mərkəzlərə, ocaq və pirlərə nəzir vermək istəyənlər bunu bank, poçt, plastik kart, yaxud internet vasitəsilə də həyata keçirə biləcəklər. Xatırladaq ki, nəzir qutularına yığılan ianələrin məbləği və taleyi ilə bağlı cəmiyyətdə zaman-zaman müzakirələr gedir, iddialar səsləndirilir. Qanunu hazırlayan deputatların fikrincə, ianələrin onlayn qaydada verilməsi şəffaflığı təmin edəcək. Həmçinin, qanuna dəyişiklikdən sonra vətəndaşlar icmalara şübhə etmədən ianə edə biləcəklər. İlahiyyatçılar isə düşünür ki, ianələrin hansı üsulla ödənilməsinin dini cəhətdən heç bir fərqi yoxdur. Əsas olan niyyətdir.

**Mövzu ətrafında gedən müzakirələri ”Şərq”ə dəyərləndirən tanınmış jurnalist, dini yazar Kənan Rövşənoğlu bildirib ki, plastik kartla ianələrin ödənməsi dövrün tələbi kimi normaldır. Onun sözlərinə görə, dünyanın bir çox ölkələrində nağdsız, yəni kartla ödənişə keçiblər**: ”İanələrin bu şəkildə ödənməsində problem yoxdur. Amma verilən açıqlamalardan belə anlaşılır ki, burada başqa amillər də var. Məsələn, parlamentin iclasında deputatlar bildirir ki, ianələrin dövlət qurumu yanında mərkəzləşdirilmiş fondda toplanması və oradan xərclənməsi təklif olunur. Bunun mexanizmi aydın deyil. Üstəlik, bu təklif özlüyündə yaxşı səslənsə də, nəzərə almaq lazımdır ki, ianələri tamamilə nəzarət altına almaq və eyni mənbəyə yönəltmək mümkünsüzdür. Nəzirdən vergi tutulması da mümkün deyil. Bütün dünyada, eləcə də Azərbaycanda ianələr və yardımlar vergiyə cəlb olunmur. Toplanmış ianələr insanların maddi və mənəvi ehtiyaclarına xərclənir. Ümumən, bu sahədə ciddi problem olduğunu və sözügedən dəyişikliyin hansısa problemi kökündən həll edəcəyini düşünmürəm”.

**İsmayıl Qocayev**

**Ermənistan yaxın vaxtlarda Azərbaycanla Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun tikintisinə başlamağa imkan verəcək hüquqi sənədi imzalamağa ümid etdiyini bildirib.**



Bu barədə Ermənistan Baş naziri Nikol Paşinyan hökumətin iclasında çıxışı zamanı danışıb:

”Hazırda biz Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun Ermənistan hissəsinin tikintisi ilə bağlı konkret işləri yerinə yetirik. Artıq texniki işlərə başlanılıb. Yaxın vaxtlarda ümid edirik ki, əldə olunmuş razılaşmalar sənəd şəklində öz əksini tapacaq və proses inkişaf etdiriləcək”.

# Tək Paşinyanın istəyi deyil ki...

## Yolların açılması bir-birinə qonşu olan bütün dövlətlərin marağındadır

Ermənistan və Azərbaycanı birləşdirən Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun tikintisi ilə bağlı qərar 2021-ci il dekabrın 15-də Brüsseldə keçirilən görüşdən sonra Azərbaycan və Ermənistan liderləri tərəfindən təsdiqlənib.

Xatırladaq ki, bu barədə Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin iştirakı ilə üçtərəfli işçi qrupunun görüşündə razılıq əldə olunub.

Azərbaycan regionda sabitliyin yaradılması, möhkəmlənməsi və qorunması üçün həmişə danışıqlar aparır. Ermənistan isə daim öhdəliklərindən imtina edib. Qarşı tərəf kommunikasiya yollarının açılması ilə bağlı ilk addımları atır.

Bu dəfə isə əksi olur. Görünür, Paşinyan hakimiyyəti nələrisə anlayır, qaçmağın mümkünsüz olduğunu dərk edir.

**Mövzu ilə bağlı “Şərq”ə açıqlama verən millət vəkili Arzu Nağıyev kommunikasiyaların açılmasından bəhs edib:**

”3+3” formatında əsas məqamlardan biri kommunikasiyaların açılmasıdır. Burada da ən ciddi məsələ dəmiryolunun bərpasıdır. Biz dəfələrlə öz təklifimizi irəli sürdük. Delimitasiya və demarkasiyadan sonra ən vacib məsələ məhz daşınmaların həyata keçirilməsidir. Bu tək Paşinyanın istəyi ilə əlaqəli deyil. Şimal, cənub, şərq və qərb istiqamətlərində yolların açılması artıq bütün dövlətlərin marağındadır. Bu üsulla Ermənistan rəhbəri iqtisadi tənəzzülə uğramış dövlətini embarqodan çıxara bilər”.

*Millət vəkilinin fikrincə, Paşinyanın Azərbaycana qarşı müsbət addım atmasının qarşısını ala biləcək təsirlər var:* ”Təbii ki, daxili qüvvələr çalışırlar ki, o, danışıqlara getməsin, düzgün qərarlar verməsin. Lakin Paşinyan həm daxili auditoriyanı sakitləşdirmək, həm də Rusiya və Qərbə bir mesaj ötürmək üçün sülhün tərəfdarı olduğunu göstərir. 10 noyabr bəyannaməsi və Soçi sazişinə əsasən bu məsələnin həlli mütləqdir”.

**Cəmilə Əzim**

# QMİ-nin bu xalqa vurduğu zərbə hələ çox sonra bilinəcək

## Turan İrfan: “İllərdir məscidlərə savadsız, cahil, irançı mollaları doldurublar”

**Milli Məclisin sonuncu iclasında ”Dini etiqad haqqında” qanuna dəyişikliyin müzakirəsi zamanı deputat Məlahət İbrahimqızı ilə vitse-spiker Fəzail İbrahimli arasında mübahisə yaranıb. Parlamentin sədr müavini deputatın ötən iclasda qaldırdığı məsələyə münasibət bildirərkən yer üzündə cəhalətə qarşı qanunun qəbul olunduğu və ya orada cəhalətin kökünün kəsildiyi ölkənin olmadığını bildirib. Fəzail İbrahimlinin fikirlərinə Məlahət İbrahimqızının cavabı isə mübahisəni daha da alovlandırıb.**

Vitse-spikerlə aralarında baş verən mübahisə haqqında mətbuata açıqlama verən millət vəkili Məlahət İbrahımqızı yaşanmış hadisənin normal olduğunu bildirib. Vurğulayıb ki, parlament müzakirə və polemika yeridir: ”125 millət vəkili var, fərqli partiyalar var. Burada əlbəttə ki, kiminsə dediyini o birilər təkrar edəsi deyil. Problemlə bağlı vitse-spiker də həmin düşüncədə idi. Onun baxışı, yanaşması başqa cür idi, mənim yanaşmam başqa cür. Anlaşmazlıq oldu bitdi, burada nə var ki? Necə uyğun olacaq, qanuna sala biləcəklərmi, bunun mexanizmini ekspertlər bilirlər. Məsələni uzatmaq düzgün deyil”. Parlamentari qeyd edib ki, XXI əsrin üçüncü minilliyində dinimizin gözəlliyini, elmiliyini təbliğ etməliyik: ”Yüz il bundan öncə Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir kimi ziyalılarımızın mübarizə apardığı cahillik, xurafat və mövhumata qarşı biz də mübarizə aparmalıyıq. Tibb və təhsil işçiləri üçün təkmilləşdirmə kursları, sertifikasiya təşkil olunduğu kimi, dini ibadət yerlərində çalışan ilahiyyatçılar da xüsusi imtahandan keçirilməlidir”.





“Simvolik olaraq QMİ-ni saxlamaqla bütün səlahiyyətlərini Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə vermək lazımdır”

**Milli Məclisdə yaşanmış polemika ilə bağlı ”Şərq”ə danışan ilahiyyatçı Turan İrfan deyib ki, belə müzakirələr parlamentin canlanması üçün vacibdir. Ekspertin sözlərinə görə, əslində hər iki millət vəkili haqlı idi, sadəcə anlaşmazlıq yarandığı üçün bir-birini yaxşı başa düşmədilər:**

”Cahil sözünü ”savadsız”la əvəz etsəydilər daha yaxşı anlaşılardı. Yaxını vəfat edən şəxs gedib məsciddən molla gətirir. O haradan bilsin ki, gələn molla savadsızdır, cahildir və ya İran agentidir? Nə bilsin ki, molla gəlib İranın siyasi təbliğatını aparacaq, yaxud ağı deyəcək, nağıl danışacaq. Belə hadisə baş verirsə, günahı aidiyyəti qurumlardadır. Qafqaz Müsəlmanları İdarəsinin bu xalqa vurduğu zərbə, ziyan hələ çox sonra bilinəcək. İllərdir məscidlərə savadsız, cahil, irançı mollaları doldurublar. Bu idarə ümumiyyətlə, Rusiya və İrana xidmət edir. Konkret olaraq ”İranın ikinci səfirliyi” kimi fəaliyyət göstərir. Hətta dini bayramları belə türk-müsəlman aləminin əksinə, İranla eyni gündə qeyd edirlər”.

**T.İrfan ”QMİ ləğv olunmalıdırmı” sualına cavabında bildirib ki, idarə qalsa belə onun xaricə alət olmasının qarşısı alınmalıdır:** ”Əslində bu idarənin elə bir funksiyası yoxdur. Gürcüstan QMİ-dən çoxdan ayrılıb. Rusiyada da bu idarənin sözünə qulaq asan yoxdur. Simvolik olaraq QMİ-ni saxlamaqla bütün səlahiyyətlərini Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə vermək lazımdır. Dinimizi qaragüruh, xurafatçı, ora-bura işləyən mollalardan azad etmək üçün mütləq dövlət bu işə qarışmalıdır. Bir şəxsin nüfuzuna görə bütöv xalqın mənəviyyatını, inancını oyuncağa çevirmək olmaz. İdarə sədrinin xətri üçün dinimizi məhv etməyə haqqımız yoxdur”.

**İsmayıl Qocayev**



# AMEA-ya kim rəhbərlik edəcək?

## Fevralın 19-da toplantı gözlənilir

**Fevralın 19-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) ümumi yığıncağı keçiriləcək. Vesti.az-ın məlumatına görə, ümumi yığıncaqda Akademiyaya yeni prezident seçiləcək. AMEA prezidenti postuna Akademiyanın birinci vitse-prezidenti Arif Həşimovun namizəd olması ehtimal edilir.**

Qeyd edək ki, fevralın 14-də AMEA Rəyasət Heyətinin iclası keçirilib. Ramiz Mehdiyev istefa ərizəsi ilə dövlət başçısına müraciət edəcəyini bildirib.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin mətbuat katibi Azadə Balayeva planlaşdırılan yığıncaq haqqında bunları deyib:**

”İclasın keçirilməsi planlaşdırılır. Amma hələ dəqiq deyil. Çünki qərar qəbul olunmayıb. Hazırda iclasda iştirak edəcək şəxslərin sayı müəyyənləşdirilir. Yığıncağın keçirilməsi saydan asılı olacaq. Daha sonra biz qəti qərarı biləcəyik ki, keçirilsin, ya yox”.

**Cəmilə Əzim**

# Müharibənin bir addımlığında...




## Son sözü Putin deyəcək, iki senaridən biri işə düşəcək

**Ukrayna tərəfi separatçıların Luqansk əyalətində kəndləri atəşə tutduğunu bildirib. Vurğulanıb ki, uşaq bağçası, dəmiryol stansiyası və lokomotiv deposuna zərbələr endirilib.**

Sosial şəbəkələrdə yayılan görüntülər dağıntıların olduğunu təsdiqləyib. Rusiya və separatçılar isə Ukrayna ordusunu hücuma keçməkdə ittiham ediblər. Ekspertlərin qənaətincə, separatçıların olduğu bölgədə eskalasiyanın başlanması Moskvanın Donetsk və Luqanskla bağlı dövriyyəyə saldığı planının tərkib hissəsi sayılır.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə bildirib ki, Rusiya Dövlət Duması iki separatçı rejimin ”müstəqilliyini” tanımaqla bağlı qanun layihəsini qəbul etdi. Analitikə görə, son sözü Putin deyəcək:** ”Kreml bu gedişlə iki senarini işə salır və ikisindən birini gerçəkləşdirmək niyyətindədir. Məqsəd Kiyevi Minsk razılaşmasına məcbur etməkdir. Rusiya ABŞ-la qarşıdurmada Fransa və Almaniyanın tutduğu mövqedən Minsk razılaşmasının icrası üçün də istifadə edir. Putin-Makron və Putin-Şolz (Olaf Şolz - Almaniya kansleri) danışıqlarında əsas maddələrdən biri də bu idi. Paris və Berlin bununla ABŞ-ı prosesdən kənarlaşdırmaq, Avropada müharibə riskini aradan qaldırmaq istəyir. Moskva separatçıların yüksək status əldə etməsinə nail olur və bununla Ukraynanın NATO-ya inteqrasiyasının qarşısını alır. Şolz Moskvaya səfərdən öncə Zelenski ilə görüşdü və bildirdi ki, Ukrayna prezidenti Donbasla bağlı qanun layihələri paketini təqdim edəcəyinə söz verib. Ardınca Moskvada Putinlə bu məsələni müzakirə etdi.

Putin Şolza ”Luqansk və Donetskin tanınması qərarı deputatların ölkədə ictimai rəyi nəzərə alması ilə bağlıdır” dedi. Eləcə də, ”Donbassda rusdilli əhaliyə qarşı soyqırımı olduğunu” da iddia etdi. Bununla demək istəyirdi ki, separatçıların ”müstəqilliyini” Minsk razılaşmasının yerinə yetirilməsi şərti ilə tanımaya bilərəm”.

**A.Nərimanlıya görə, Putin də anlayır ki, separatçıların ”müstəqilliyi”nin tanınması danışıqların ləğvi və ABŞ-a qarşı istifadə etdiyi Avropa cəbhəsini də itirməsi ilə nəticələnə bilər:** ”Bu, Fransa və Almaniyanın ABŞ qarşısında əlini zəiflədəcək və Avropada böyük eskalasiya riskini artıracaq. Bu baxımdan, mövcud vəziyyətdə Dumanın qərarı Ukrayna cəbhəsində konkret nəticə əldə etmək üçün Avropanı tələsdirməyə məcbur etmək məqsədi daşıyır. Putin Luqansk və Donetskin ”müstəqilliyini” tanımaq məsələsini rıçaq kimi istifadə etməklə yanaşı, proseslərin inkişafına uyğun olaraq, sonda buna getmək imkanını da əlində saxlayır. Rusiyanın ABŞ-NATO qarşısında rıçaqları işləməsə, Moskva son anda separatçıların ”müstəqilliyini” tanıya bilər. Bu tanınma Krımın ilhaqı senarisinin təkrarı olacaq və separatçı bölgələr Rusiyaya birləşdiriləcək. İndi Moskvanın ”rus əhalisinə hücum edilir” iddiasında haqlı çıxması üçün səbəblər lazımdır və separatçıların atəş açması, bölgədə lokal eskalasiya bu səbəbləri yaradan amildir. Hərçənd, lokal eskalasiya Rusiya üçün heç də risksiz senari deyil. Birincisi, separatçıların Ukrayna ordusu qarşısında duruş gətirmək imkanı azdır. Rəsmi Kiyev hərbi müstəvidə irəliləyiş əldə edərsə, münaqişə ilə bağlı yeni masanın qurulmasını və Minsk razılaşmasında əleyhinə olan müddəaların ən azı yumşalmasına nail ola bilər. İkincisi, ABŞ lokal eskalasiyanı Rusiyanın Ukraynaya hücumu kimi qəbul edə və cavab senarisini işə sala bilər. Bu baxımdan, baş verənlərdən hansı tərəfin qazanclı çıxması kimin daha ağıllı gediş etməsindən asılı olacaq”.

**İsmayıl Qocayev**



# Neftin bahalaşması yaxşı hal deyil

## Qiymət artımları bazarda “köpüklər” yaradacaq

**Dünya bazarında ”Azeri Light” markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 100 dolları keçib. Sonuncu dəfə neftimiz bu qiymətə 2014-cü ilin sentyabr ayında satılıb. Xatırladaq ki, Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 50 dollar götürülüb.**

Millət vəkili Vüqar Bayramov ”Şərq”ə deyib ki, neftə tələbin artması, Rusiya-Ukrayna gərginliyinin hələlik tam aradan qalxmaması və yoluxma sayının artmasına baxmayaraq, qlobal pandemiyanın təsirləri ilə bağlı gözləntilərin nikbinləşməsi ”qara qızılın” qiymətinə təsirsiz ötüşməyib. Deputatın sözlərinə görə, neftin qiyməti yüksəlməkdədir: ”2022-ci ilin yanvar ayında Azərbaycanda gündəlik neft hasilatı 700,5 min barel olub. Bunun 580,9 min barelini xam neft, 119,6 min barelini isə kondensat təşkil edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə isə ölkəmiz 2021-ci ildə 27 milyon 116 min ton xam neft və xam neft məhsulları ixrac edib. Bu o deməkdir ki, il ərzində xaricə 173 milyon 271 min barel neft göndərilib. Bu ilin dövlət büdcəsində 1 barel neftin qiyməti 50 dollar müəyyənləşdirilib. Neftin illik orta qiyməti yüksək olarsa, Dövlət Neft Fonduna daxilolmalar artacaq və valyuta ehtiyatlarımız çoxalacaq. Bu baxımdan, neft bazarındakı son tendensiya bütövlükdə neft ölkələri üçün arzuolunan dəyişiklikdir.

Bununla yanaşı, neftin qiymətinin kəskin artması neft bazarı üçün potensial risklər də formalaşdırır. Qiymət artımları bazarda ”köpüklər” yaradacaq. Bu baxımdan, artan qiymətlərin yenidən aşağı enməsi istisna edilmir”.

Parlament üzvü bəyan edib ki, enerji məhsulları ixrac edən əksər ölkələr və eləcə də Azərbaycan üçün neft bazarındakı stabillik valyuta daxilolmalarının optimallığı baxımdan vacibdir: ”Əksər neft ölkələri üçün 1 barel neftin qiymətinin 75-80 dollar intervalında stabilləşməsi iqtisadi baxımdan məqbul hesab olunur. Amma neftin qiyməti yalnız iqtisadi deyil, eyni zamanda siyasi faktorlardan asılı olduğundan istənilən zaman bazarda sıçrayışlar istisna edilmir. Neft bazarındakı proqnozlaşdırılmayan volatillik bir daha təsdiq edir ki, enerji resurslar ilə zəngin ölkələr üçün güclü qeyri-neft sektoru formalaşdırmaq alternativsizdir. Prioritet də neft gəlirlərindən asılılığı minimumlaşdırmaqdır”.

**İsmayıl**



# Erməni silahlıları yol kəsirlər, "yoxlama" aparırlar

## Yük maşınlarımız öz torpaqlarımızdan geri qaytarılır

**Media və sosial şəbəkələrdə yayılmış bir xəbər ölkə ictimaiyyətinin hiddətinə səbəb olub. Xəbərə görə, Suqovuşandan Kəlbəcər rayonuna ”sülhməramlılar”ın müşayiəti ilə yük aparan sürücülərimiz erməni silahlılarının ”yoxlamasından” keçə bilməyib. Nəticədə yük maşınları geri qayıtmağa məcbur olub. 40 nəfərdən ibarət olan erməni silahlılarının ”sülhməramlıların” sözünə belə əhəmiyyət vermədiyi deyilir.**

Halbuki, razılaşmaya görə, Rusiya sülhməramlılarının vəzifəsi yük maşınlarının təhlükəsizliyini təmin etmək məqsədilə onu müşayiət etməkdir, maşında aparılan yükün nə olduğunu yoxlamaq deyil. Tutaq ki, maşında tank, top, silah aparılır, axı bu yük başqa ölkənin deyil, Azərbaycanın öz ərazisində daşıdığı öz yüküdür. Necə olur ki, Laçın dəhlizi vasitəsilə Ermənistandan və digər ölkələrdən Azərbaycana keçən yük və minik maşınları, insanlar səthi yoxlanılıb əraziyə buraxılır, amma Azərbaycanın öz ərazisində daşıdığı öz yükünü həm Rusiyanın, həm də separatçı rejimin polisi yoxlayır? Yoxlamanın hədəfi nədir, nəyi axtarırlar və qanunsuz olan nədir ki, onu axtarırlar? Biz öz ərazimizdə istədiyimiz yükü daşıya bilərik, Rusiya sülhməramlılarının vəzifəsi o yükün təhlükəsiz daşınmasını təmin etməkdir. Rusiya ”sülhməramlıları”nın Qarabağdakı separatçı rejimin mövcudluğunun əsas təminatçısı olduğu bəllidir. Göründüyü kimi ara-sıra qondarma rejimin ”legitimliyini” isbatlamaq üçün bu cür ”nümunələrdən” də istifadə edirlər. Öz ”sülhməramlılarını” Qarabağ ərazisinə yerləşdirən Moskva nəzarət etdiyi ərazilərə Azərbaycan dövlətinin təsirlərini maksimum azaltmaq siyasəti güdür. Problemin yaxın zamanda həll olmayacağını nümayiş etdirir. Təhlükəli məqamlardan biri də Qarabağda süni olaraq ruslaşdırma cəhdlərinin müşahidə olunmasıdır. İlk dəfə rus dilinin Qarabağda ikinci rəsmi dil kimi qəbul etdirilməsi, rus provaslav kilsəsinin Xocalıda tikilməsi, Rusiya ictimai və hərbi xadimlərinin büstlərinin qoyulması bunun təsdiqidir.

**Narazılıq doğuran məqamla bağlı ”Şərq”ə danışan Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə deyib ki, təxribat aktlarının qarşısı sərt şəkildə alınmadıqca, ermənilər getdikcə daha da həyasızlaşacaq. Partiya rəhbəri bildirib ki, erməni quldurları artıq rus ”sülhməramlıları”na da məhəl qoymur:** ”Erməni silahlıları özləri yol kəsirlər, ”yoxlamalar” aparırlar. Problem ondadır ki, ”sülhməramlıların” və separatçıların özbaşına hərəkətlərinə, qanunsuz addımlarına rəsmi qaydada sərt reaksiya verilmir. Xatırlayırsızsa, bir müddət əvvəl separatçılar rus ”sülhməramlıları” ilə birgə maşınlarımızın yoxlanmasında iştirak etmişdi. İctimai narazılıqdan sonra xəbər yayıldı ki, guya, Rusiya sülhməramlıları bunun bir daha təkrarlanmayacağına söz veriblər. Ruslar nəinki sözlərində durdular, əksinə, daha betər təxribatlara şərait yaratdılar. Əgər bu gün yük maşınlarımızın öz torpağımızda geri qayıtmasından danışırıqsa, deməli, ciddi ölçü götürməyin vaxtıdır. Ərazilərimizdə nəzarəti tam olaraq əlimizə almalıyıq. 10 noyabr üçtərəfli bəyanatın bəndləri sənədə imza atıldığı ilk gündən pozulub. Erməni hərbi birləşmələri hələ də bölgədən çıxarılmayıb. Rusiyaya xəbərdarlıqla iş bitmir. Dərhal anti-terror əməliyyatlarına başlamalıyıq”.

*“Ruslar nəinki sözlərində durdular, əksinə, daha betər təxribatlara şərait yaratdılar”*

**A.Əlizadə vurğulayıb ki, gözümüzün önündə separatçıların gücləndirilməsi üçün hər cür addım atılır:** ”Səngər söhbətindən sonra xəbər yayılır ki, erməni tərəfi yazda torpaqlarımıza hücuma hazırlaşır. Rəsmi qurumların məsələyə yanaşması və cavabı çox sərt, adekvat olmalıdır. Ötən gün Baş Prokurorluq məlumat yaydı ki, baş separatçı Araik Arutyunyanun həbsinə hazırlıq gedir. Bu açıqlamadan sonra Arutyunyan başına torba keçirilərək Bakıya gətirilməlidir. Ancaq əməli addımlarla separatçıların təxribatlarının qarşısını almaq və onları zərərsizləşdirmək mümkündür. Əks halda daha ciddi hadisələrlə üzləşəcəyik”.

**İsmayıl Qocayev**

# Türkiyə və İsrail əməkdaşlıqda maraqlıdırlar

## Ankara bununla həm də özünə qarşı olan qlobal və regional blokadanı yarır



**İsrail Prezidenti İsaak Hersoq Türkiyəyə səfər edəcək. Səfər 9-10 mart tarixinə planlaşdırılıb. Türkiyə prezidentin sözçüsü İbrahim Kalın və xarici işlər nazirinin müavini Sedat Önal isə 16-17 fevral 2022-ci il tarixlərində Fələstin və İsrailə səfər edəcəklər. Nümayəndə heyəti Fələstin Prezidenti Mahmud Abbas tərəfindən qəbul olunacaq və Fələstin rəsmiləri ilə danışıqlar aparacaq.**

Həmçinin, onlar İsrail hökuməti ilə də görüşəcək, Prezident İsaak Hersoqun Türkiyəyə səfərinə hazırlıq məsələlərini müzakirə edəcəklər. Daha sonra İsrailin xarici işlər və enerji nazirləri Antalya Diplomatik Forumunda iştirak etmək üçün Türkiyəyə gedəcəklər. Xatırladaq ki, 2022-ci ilin yanvarında iki ölkənin xarici işlər nazirləri son 13 ildə ilk dəfə telefonla danışıblar.

**Analitik Turab Rzayev İsrail dövlət başçısının Türkiyəyə gözlənilən səfərini ”Şərq”ə şərh edib. O, Türkiyə-İsrail münasibətlərinin yaxşılaşmasında bir neçə amilə diqqət çəkib:** ”Bundan öncə tərəflər arasında gərginlik müşahidə olunsa da, ümumi strateji hədəfdə olan bəzi məsələlər onları əməkdaşlığa məcbur edirdi. Belə ki, hərbi birliklər arasında əlaqələr qalmış və İsrail pilotları Türkiyədə təlim məşqi keçirdilər. İqtisadi əlaqələr də dayanmadan inkişaf edirdi. Hazırda tərəflər arasında ticarətin dövriyyəsi bir neçə dəfə artıb. Hətta İsrail bəzi məhsullarını xüsusi olaraq Türkiyədən alır”.

*T.Rzayev hesab edir ki, Türkiyə və İsrail Hərbi Dəniz Qüvvələrinin arasındakı münasibət iki ölkə arasındakı əlaqələrin inkişafının kuliminasiya nöqtəsi olub:* ”Türkiyə Hərbi Dəniz Qüvvələrinin keçmiş komandiri açıq şəkildə Türkiyə Liviya ilə olduğu kimi İsraillə də dil tapdığını bəyan edib. Digər tərəfdən rəsmi Ankara özünə qarşı Aralıq dənizində yaradılmış Kipr, Yunanıstan, Misir, Suriyadan ibarət bloku dağıtmağa müvəffəq olub. Artıq BƏƏ Türkiyəyə qarşı olan dövlətdən ona sığınan, onunla iqtisadi əlaqələrin inkişafına maya qoyan dövlətə çevrilib. İndi isə İsrail Türkiyə ilə yaxınlaşmağa çalışır”.

**Analitikin fikrincə, İsrailin Yaxın Şərqdə dövlətçiliyini normal şəkildə davam etdirməsi üçün rəsmi Ankaranın yardımına ehtiyacı var:** ”Əks halda onun üçün çətin olacaq. İsrail Aralıq dənizinin şərqindəki qaz yataqlarından Kipr və Krit adaları üzərindən Yunanıstana çəkilməsi nəzərdə tutulan ”EastMed” boru kəməri layihəsinin Türkiyəsiz həyata keçirilməyəcəyini bilir. O həm enerji, həm də ölkənin təhlükəsizliyi, eləcə də qlobal ”EastMed” kimi layihələrdə iştirak üçün Türkiyədən asılı olduğunu anlayır”.

T.Rzayevin qənaətincə, Türkiyə də özünə qarşı qlobal və regional blokadanı yarmaq, əleyhinə olan qüvvələrin təsirini azaltmaq üçün İsraillə əməkdaşlığa maraqlıdır.

**Günəş Mərd**

# Lukaşenkonun o qədər maliyyəsi yoxdur

## Rusiya “İsgəndər”i Belarusa ödənişsiz verəcək

**Belarus öz ərazisində ”İsgəndər” operativ - taktiki raket komplekslərinin inkişafı üçün təlim mərkəzi yaratmaq məqsədilə Rusiyaya müraciət edəcək.**

Bu barədə Belarus Prezidenti Aleksandr Lukaşenko açıqlama verib.

”Bu gün Rusiyanın ”İsgəndər”lərinə baxdım. Yaxşı silahlardır. Bizə onun inkişaf etdirilməsi lazımdır.

Bu silahı Rusiyadan alacağıq”, - Lukaşenko bildirib.

**Lukaşenkonun iddialı açıqlamasını ”Şərq”ə dəyərləndirən politoloq Elxan Şahinoğlu bildirib ki, Belarusiya son zamanlar həm iqtisadi, həm də hərbi cəhətdən Moskvadan asılı vəziyyətə düşüb:**



”Rusiya asanlıqla burada hərbi bazalarını da yerləşdirə bilir. Ermənistanda raketlərini yerləşdirirdisə, eynisini Belarusiya üçün də edə bilər. Çünki bu, bahalı raket kompleksləridir və Belarusiyanın onu alacaq maliyyəsi yoxdur. Yəni Rusiya qərb qonşusunu qorumaq adı altında kifayət qədər silah və hərbiçilər yerləşdirə bilər.

Rusiya kimə istəsə silah sata bilir. Məsələn, Hindistana satanda Qərbdə müəyyən suallar doğurmuşdu. Çünki Hindistanın Avropa ilə çox yaxşı əlaqələri var. Ancaq Rusiyadan asılı olan dövlətlər ondan silah alanda bu, Qərbdə etiraz doğurmur. Bilirlər ki, Belarusiya da Ermənistan kimi dövlətdir”.

**Sənan İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**




# İxtisaslı, savadlı kadrlarımız çoxdur

## “Yüksəliş” müsabiqəsinin üstünlüyü bundadır ki, ölkənin kadr potensialı haqqında məlumat bankının formalaşmasına xidmət edir

**Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasının təmin edilməsi məqsədilə ”Yüksəliş” müsabiqəsi təsis olunub. Sərəncamın icrasına başlandığı vaxtdan bugünədək ”Yüksəliş” müsabiqəsi gələcək karyerasını qurmaq və ölkənin gələcək taleyində mühüm rol oynamaq istəyən şəxslər üçün böyük bir platformaya çevrilib**.

Bu müsabiqə peşəkar kadrlara böyük imkanlar yaradır. Bu imkandan yararlanmaq istəyənlər, biliyinə, intellektual səviyyəsinə güvənənlər müsabiqədə iştirak edir, onun verdiyi imkanlardan yararlanmağa çalışırlar. İkinci ”Yüksəliş” müsabiqəsinin qeydiyyat mərhələsinə artıq start verilib. Bu barədə ”Yüksəliş” müsabiqəsinin İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev dünən keçirilən brifinqdə bildirib. Müsabiqə şərtlərinə görə, 21-51 yaş arasında olan, ali təhsilli, ən azı 2 il idarəçilik təcrübəsinə malik Azərbaycan Respublikasının vətəndaşları qeydiyyatdan keçərək müsabiqədə iştirak edə bilər. Qeydiyyat ”Yüksəliş” müsabiqəsinin saytı (www.yukselish.az) vasitəsilə həyata keçirilir və təqribən 1 ay davam edəcək. Müsabiqə Qeydiyyat, Onlayn, Əyani, Yarımfinal və Finaldan ibarət olmaqla 5 mərhələdən ibarətdir. Qeydiyyat mərhələsində müsabiqədə iştirak etmək hüququna malik olan şəxslər www.yukselish.az rəsmi internet səhifəsində Şəxsi Kabinet yaratmaqla və qeydiyyat formasını (anketi) doldurmaqla qeydiyyatdan keçə bilər. Müsabiqənin yekunlarına əsasən, ”Yüksəliş” qalibi elan olunan 20 iştirakçı bir illik İdarəçi rəhbərlərin iştirakı ilə mentorluq proqramına qoşulma və fərdi inkişaf üçün 20 min manat pul mükafatı qazanmaq imkanı əldə edəcək. İlk müsabiqədə qeydiyyat üçün 11760 nəfər müraciət edib, onlardan 9775 nəfər müsabiqəyə qəbul edilib. F.Hacıyev qeyd edib ki, builki ”Yüksəliş” müsabiqəsində keçənilki ekspert və qaliblər iştirak edə bilməz. Bu il üçün test imtahanlarında bəzi yeniliklər olacaq. Test imtahanlarında namizədlərin İT biliklərinin nəticələri barədə iyun ayında ictimaiyyətə məlumat veriləcək. ”Yüksəliş” müsabiqəsinə bu gündən başlayan qeydiyyat prosesi bir aydan çox davam edəcək, martın 31-də bitəcək. Builki müsabiqə üçün 10 mindən artıq müraciətin olacağı nəzərdə tutulub: ”Pandemiya şəraitindən asılı olaraq müsabiqənin avqust ayında bitməsi planlaşdırılır”. F.Hacıyev əlavə edib ki, ötən seçilən 27 qalikləri də yoxlanılacaq. Sualların məzmununda da dəyişiklik olacaq: ”Əvvəlki sual bazası sırf ölkə ilə bağlı idisə, bu dəfə dünyada baş verən hadisələrlə bağlı suallar da olacaq. Sualın formatından asılı olaraq namizədlərə vaxt veriləcək. Real imtahan formatında sınaq imtahanları da keçiriləcək. Səhər saat 10-da başlayan qeydiyyat prosesindən indiyə kimi artıq 500-dən çox namizəd qeydiyyatdan keçib.

Müsabiqə əyani və qabiliyyət imtahanı mərhələsində beynəlxalq təcrübəyə əsaslanacaq. Bu istiqamətdə Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edilir”. İşçi Qrupunun rəhbəri əlavə edib ki, əvvəlki müsabiqənin mentorluq proqramının nəbin adı ehtiyat kadr bankına daxil ediləcək. Bölgələrdə də təqdimatlar olacaq, müsabiqəyə marağı olan şəxslərlə görüşlər keçiriləcək.

**Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri, fəlsəfə doktoru Kamran Əsədov ”Şərq”ə açıqlamasında ”Yüksəliş” müsabiqəsinin üstünlüklərindən danışdı:**

- ”Yüksəliş” müsabiqəsi ixtisaslı kadrlar üçün, əlbəttə geniş imkanlar açır. Bu müsabiqənin keçirilməsini yüksək qiymətləndirirəm. İxtisaslı, savadlı kadrlarımız çoxdur. Dövlət qulluğuna imtahan verir, lakin bir çoxları yenə də ixtisasına uyğun iş tapa bilmir. ”Yüksəliş” müsabiqəsinin üstünlüyü bundadır ki, ölkənin kadr potensialı haqqında məlumat bankının formalaşmasına xidmət edir. Məsələn, hansısa dövlət strukturunda vakant yerlər varsa, ”Yüksəliş” müsabiqəsinin qalibləri arasından seçim etmək imkanı yaranır. Sizə bildirim ki, birinci ”Yüksəliş” müsabiqəsinin qalibləri arasında hazırda dövlət strukturlarında, məsul vəzifələrdə çalışanlar var. ”Yüksəliş” müsabiqəsinə ümidlər, bu gün də böyükdür. Lakin bəzi suallar da ortaya çıxır. Xüsusilə son turlardakı seçimlərlə bağlı. Məsələn, müsabiqədə iştirak şərtlərinə 2 illik idarəçilik təcrübəsinin daxil edilməsi, məncə, düzgün deyil. Burada müsabiqədə iştiraka əlçatanlıq dərəcəsi azalmış olur. ”Yüksəliş” müsabiqəsində iştiraka o şəxslər can atır ki, ali savadlıdırlar, yüksək ixtisas dərəcələri var, potensiallarına güvənirlər və işləmək, çalışmaq arzusundadırlar. Amma belə məqamda onların qarşısına 2 illik idarəçilik tələbinin qoyulması qarşılarını kəsir. Aydın məsələdir ki, ”Yüksəliş” müsabiqəsi Məşğulluq Mərkəzi deyil. Müsabiqə iş karyerasında yüksəliş vəd edir. Lakin daha yaxşı olardı ki, müsabiqədə iştiraka bu cür əngəllər yaradılmasın. Həmçinin, hazırda dövlət qulluğunda işləyənlərin də müsabiqədə iştirakına icazə verilməsi, məncə, düzgün deyil. Dövlət qulluğunda, hər hansı dövlət strukturunda çalışanlar daxildə vəzifə pilləlləri ilə qalxmalıdır. Müsabiqə imkanlarından, növbəti dəfə yararlanmağa çalışmamalıdırlar. Deyək ki, hazırda şöbə müdiri işləyən müsabiqədə qalib gəlib sektor müdiri təyin ediləcəksə, burada irəliləyiş mümkün olmaz.

**K.Əsədov bildirdi ki, müsabiqə müddətinin uzun olması da məqsədəmüvafiq görünmür:**

- Müsabiqənin yekunlaşmasına 1 il vaxt gedəcək. Sonda 20 nəfər seçiləcək. Hesab edirəm ki, müsabiqəni daha sürətli və daha mobil təşkil etmək, 6 ay ərazində yekunlaşdırmaq mümkündür.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Ukrayna ortada vurnuxur

## Kompromis variant tapmaq qeyri-mümkündür

**NATO Ukrayna məsələsini diplomatik yolla həll etmək üçün bütün vasitələrdən istifadə edir. Ukrayna məsələsi ətrafında de-eskalasiya əlamətləri görmürük.**

APA xəbər verir ki, bu barədə NATO Baş katibi Yens Stoltenberq açıqlama verib.

”Rusiyanın sərhəddə işğala hazır qüvvələri var”, - Baş katib əlavə edib.

O, bu il NATO-Gürcüstan hərbi təlimlərinin keçiriləcəyini də əlavə edib.

**Yaranmış gərginliklə bağlı ”Şərq”ə danışan politoloq Ceyhun Əhmədlinin sözlərinə görə, Moskvanın və Qərbin mövqelərinə baxsaq, bir-birilə tamamilə antaqonist meyarların ortaya çıxdığını görə bilərik:**

”Tərəflərin irəli sürdüyü şərtlər içərisində kompromis variantını tapmaq qeyri-mümkün məsələyə çevrilib.

Əvvəllər də Rusiya NATO üzərində çox alçaldıcı şərtlər qoymuşdu. O, Qərbdən Ukraynanın NATO-ya üzvlüyünün mümkünsüzlüyü ilə bağlı yazılı zəmanət istəyirdi. Eyni zamanda Avropadakı geosiyasi arxitekturanın 1997-ci ilə qədərki səviyyəyə qaytarmaqla bağlı tələb irəli sürmüşdü. Bunlar çox ağır şərtlər idi və heç biri yerinə yetirilmədi.

İndi Rusiya tərəfi yenə də kompromis gözləyir. Sergey Lavrov məruzəsində danışıqlar yolu ilə gərginliyin aradan qalxması üçün imkanların tamamilə tükənmədiyini bildirdi. Bu baxımdan Rusiyanın razılaşma əsasında geri addım atacağını düşünə bilərik.

***Rusiyanın şərtlərinə əməl olunsa, ABŞ-ın imici zədələnəcək***

Ancaq Qərb belə bir addım atmaqda maraqlı görünmür. Çünki Rusiyanın şərtlərinin yerinə yetirilməsi ABŞ-ın və Amerikanın imicini zədələmək deməkdir..

Rusiyanın əsas planı onun şərtlərinin yerinə yetirilməsi idi, ancaq olmadı. İkinci plan Ukraynanın federativ dövlətə çevrilərək Donetsk və Luqanskın respublika kimi mövcudluğunu tanıması idi. Rusiya bununla gələcəkdə Ukraynanın idarə olunmasına birbaşa təsir etmək istəyirdi. Ancaq buna nail ola bilmədi. ”C” planı isə həmin respublikaların müstəqilliyinə nail olmaqdır. Bu, Rusiya üçün də riskli addımdır. Çünki bu, Minsk razılaşmasından imtina etmək deməkdir. Dövlət Dumasında bu barədə qərar qəbul olunub. Ancaq hələ ki, Putin imzalamayıb. Bütün bunlara baxmayaraq, işğal senarisi yenə də Moskvanın gündəmindən düşməyib”.

**Sənan İsmayıl**

# "Nərmin işi" ört-basdır edilir

## Adil Süleymanov: “Şərif bu cinayətin üstünün açılmasını istəmir. Hətta bundan çox qorxur”





**Azərbaycanda böyük rezonans doğuran ”Nərmin işi” ilə bağlı ciddi müzakirələr davam edir. İlkin Süleymanov cinayətkar qismində həbs edilsə də, əsl cinayətkarın hələ də azadlıqda olduğuna dair tutarlı arqumentlərə söykənən fikirlər var.**

Ötən dəfə iddiallarla bağlı mərhumun atası Şərif Quliyev ”Şərq”ə danışıb qarşı tərəfin yaydığı bütün xəbərləri yalanlamışdı. Bu dəfə həbs olunan İlkin Süleymanovun qardaşı Adil Süleymanov ilə əlaqə saxladıq. Adil Süleymanov bildirib ki, hələ də dindirilməyən şahidlər var:

”Əsl cinayətkarın kimliyini dövlət tapmalıdır. Amma bizim əlimizdə tutarlı faktlar mövcuddur. Meyitin ora atılması ilə bağlı şahidlərimiz var. Üç şahidimiz var, amma istintaq dövründə onlardan yalnız biri dindirilib. Böyük ehtimal ki, bilərəkdən və planlı şəkildə dindirilməyiblər. Çünki o şahidlərin verdiyi ifadələr istintaqın apardığı bütün əməliyyatı alt-üst edəcəkdi. Amma buna baxmayaraq, şahidlərin ifadəsinə məhəl qoyan olmadı”.

**A.Süleymanov Şərif Quliyevin iddialarına cavab verib:**

”Digər tərəfdən Şərif deyir ki, mən onun qardaşına yaxınlaşıb demişəm ki, bu işi bir yerdə həll edək. O, böyük səhv edir. O mənə dedi ki, sizin qardaşınızı mən tutmamışam, dövlət tutub. Dövlət bilər, siz bilərsiniz. Mən dedim ki, hələ məhkəmə davam edir. Sizin burada laqeydliyiniz var. Siz İlkinə görə yox, öz qardaşınız qızınıza görə işin ədalətli aparılmasını bizlə bərabər tələb edin. Mən onlara bir sual verdim. Dedim ki, qardaşınızın, yəni Nərminin atasının dediyinə görə, Nərmin itəndə iki dişi olmayıb. Amma ekspertiza bir dişi olmadığını deyib. Bu sualıma cavab verə bilmədilər.

Öz qardaşınızın həyat yoldaşı Aynurə məhkəmədə ifadə verdi ki, meyit tapılmazdan əvvəl keçmiş polis rəisi evlərinə gəlib, onlara deyib ki, uşağınız tanınmaz halda olsa, onu nəyindən tanıyarsınız? Onlar deyib qırmızı gödəkçə və ayaqqabısından. Bəs bu ifadələr sizə bir söz demirmi? Aynurə bunları məhkəmədə demək istəmirdi, hakim və vəkillərin israrları ilə bunu açıqlayıb. Çünki ziddiyyətli ifadələr verirdi. Axırda özü etiraf etdi ki, bəli, keçmiş polis rəisi meyit tapılmazdan öncə gəlib bunları soruşub. Mənim məhkəmədən qısa müddət Şərif bəyin qardaşı Asif bəylə söhbət etmək imkanım oldu. Çünki onlar daim bizdən qaçırlar və yaxınlaşmaq istəmirlər. Mən dedim ki, bu suallara cavab verin, mən sizə söz verirəm ki, mən özüm İlkinin həbsini tələb edəcəm. Amma dedim gedin, qardaşınıza deyin ki, o çox şey bilir. Əgər doğrudan da ədalətli şəkildə araşdırılmasını istəyirsə, bizimlə birlikdə tələb etsin. Yox əgər bu suallardan qaçırsa, cavab verməк istəmirsə və hər dəfə bir bəhanə ilə İlkin günahkardır deyirsə, deməli, onun da çox şeydən xəbəri var. Hansı halda insan cinayətin üstünün açılmasını istəməz? Biz belə düşünürük ki, o halda istəməz ki, orada onu nəsə narahat edən, qorxudan şeylər var. Şərif də bu qədər suallardan qaçır və cavab verə bilmir”.

**A.Süleymanov ciddi faktların olduğunu vurğulayıb:**

”Hələ qabaqda ekspertin rəyləri ilə bağlı çox ziddiyyətli məsələlər var. Onları hələ biz açıb deməmişik. Ortada cinayətin başqası tərəfindən törədildiyinə dair ciddi faktlar mövcuddur. Amma bunu kimin edib-etmədiyini araşdırmaq bizim işimiz deyil. Bu, dövlətin işidir. Dövlətin məmurları var, nə qədər maaş alırlar. Getsinlər istintaq dövründə necə boşluq ediblərsə, araşdırsınlar. Bizim məqsədimiz İlkinin günahsız olduğunu göstərməkdir.

Xatırlayırsınızsa, İlkin ayın 6-da həbs olundu. Ayın 10-da rəsmi şəkildə həbsin müddətini elan etdilər. Həmin ayın 23-ü biz Apelyasiya Məhkəməsinə müraciət etdik. Məhkəmə müddətində biz vəkillərlə birgə İlkinin azadlığını tələb edirdik. Orada biz bu tələbi edəndə onlar dedi ki, sizin həyətinizdə qana bənzər ləkə tapılıb. Bu da 2-ci qrup qandır. Tapılan qızın qanı da 2-ci qrup idi. Həbsin müddəti məhz buna görə artırıldı. Bu, məhkəmənin qərarında da göstərilib. Bundan sonra biz ailə üzvlərimizin 6 nəfərinin qan qrupunun 2-ci qrup olduğunu göstərdik. Bu bir faktdır. Burada əsas ciddi fakt isə başqadır. Məhkəmə yanvar ayının 23-də olmuşdur. Amma indi işin içini oxuduqda görürük ki, yanvarın 22-də keçmiş baş prokuror Zakir Qaralov bu işin ədalətli aparılması haqqında Ombudsmana məktub yazıb. Yazıb ki, bu iş ədalətli aparılır, çünki İlkingilin həyətindən 5 yerdən 2-ci qrup qana bənzər ləkə tapılıb və Nərminin qan qrupu ilə eynidir. Amma indi biz görürük ki, bu məktub yanvarın 22-də yazılsa da, ekspertiza rəyi 27 yanvar tamamlanıb. Prokurorluğa da ondan sonra göndərilib. Belə olan halda Z.Qaralov hardan bilib ki, bu qan qrupu hansıdır. Özü də Z.Qaralov yalan məlumat yazıb. Çünki beş ləkənin 4-nün qrupunu müəyyənləşdirmək mümkün olmayıb. Yalnız biri darvazanın bayır tərəfində 2-ci qrup qan tapılıb. Maraqlısı orasındadır ki, Z.Qaralov doğrudan da bunu hardan bilib? Belə ehtimal olunur ki, ekspertizaya təzyiq edilib və bu iş saxtalaşdırılıb. Bu, ciddi problemdir. Ən önəmli məqam isə odur ki, tapılan meyitin qan qrupu 2-ci qrup müəyyənləşdirilmişdi, amma Nərminin pasportunda qan qrupu 4-cü qrup göstərilib. Biz hansı quruma inanaq? Yanvarın 8-i evimizin hər yeri yoxlanılıb. Buna dair rəsmi protokol da var. Orada heç bir şübhəli məqama rast gəlinmədiyi qeyd olunub. Yaxşı, necə olur ki, 10-u səhər bizim evimizin bayır divarından qan ləkəsi tapılır? Necə olur ki, 8-i gözlə görünən yerdə bu tapılmır? Bunların hamısı saxta işlərdir. Düşünürük ki, Z.Qaralovun burada çox böyük rolu var.

Ciddi şəkildə belə bir qənaətə gəlmişik ki, Şərif bu cinayətin üstünün açılmasını istəmir. Hətta bundan çox qorxur”.

**A.Süleymanov başqa bir ciddi və maraqlı faktın olduğunu deyir:**

”İyul ayında mənə zəng etdilər ki, sizin evinizin önündə dava var və siz dövlət əleyhinə çıxışlar edirsiniz. Mən bunu təkzib etdim və həmin yerdən video çəkib kəndin sakitçiliyini göstərdim. İki saatdan sonra qarşı tərəfdən 3-4 nəfər gəldi, bizim evin önündə dava düşdü. Biz buna təəccübləndik ki, necə bunu iki saat öncədən təxmin ediblər. Demək bunların hamısı bir plandır. Bizim videokameralarımıza düşən bir digər məqam da odur ki, Nərminin ailəsindən öncə bizim evin önündə polis maşını dayanır. Onlardan sonra ailəsi gəlir. Daha sonra anama xəsarət yetiriblər və o, beyin travması alıb. Sümüyündə çat var idi. Biz bunu məhkəməyə verdik və bizə orada deyildi ki, burada cinayət xarakterli heç bir əməl yoxdur. Biz sonda videogörüntüləri, şəkilləri, ekspertiza rəyini təqdim etdik. Sonra hakim məcbur qalıb qəbul etdi ki, burada cinayət xarakterli əməl var. Hələ də, iki ildir, bunu araşdırırlar.

Bu cinayət quramadır və özləri artıq tora düşüb. İnanıram ki, Allahın ədalətindən qaça bilməyəcəklər. Onlar ola bilsin ki, hansısa məmurların maraqlarına görə qanundan qaça bilsinlər, amma sonda hər şey aşkara çıxacaq”.

**P.S. Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

**Hazırladı: Çimnaz Şahlar**

# Monitorinqin nəticələri dövlət orqanlarına göndəriləcək

## Bakı və regionlarda fəaliyyət göstərən özəl və dövlət klinikalarında tibbi tullantıların idarə olunması prosesi öyrəniləcək



**"Ekoloq" Ətraf Mühitin Qorunmasına Yardım İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Tibbi tullantıların idarə olunması üzrə monitorinqlərin və maarifləndirmə işinin aparılması" layihəsinə start verilib. Layihə 30 aprel 2022-ci il tarixinədək davam edəcək.**

"Ekoloq" İB-nin məlumatında qeyd olunur ki, Azərbaycan özəl və dövlət sektorunda fəaliyyət göstərən səhiyyə müəssisələrində xüsusilə təhlükəli tullantıların idarə olunmasına lazımi diqqətin yetirilməməsi nəticəsində ətraf mühitə və insan sağlamlığına təsir edən faktorların həm həcmi, həm də miqdarı çoxalıb. Göstərilən çatışmazlığın aradan qaldırılması və bu sahədə əməli fəaliyyətə başlamaq üçün Dövlət Strategiyası işlənib hazırlanıb. Dövlət Strategiyasının məqsədi gələcəkdə təhlükəli tullantıların idarə olunması üzrə qərarların qəbul olunması əsaslarının yaradılması, beynəlxalq standartlara uyğun olaraq təhlükəli tullantıların əmələ gəlməsi, emalı və basdırılması və ilk növbədə, illər boyu yığılıb qalmış təhlükəli tullantıların yaratdığı ekoloji riskin azaldılmasına zəmanət verən tədbirlər sisteminin hazırlanması üçün vacib olan fəaliyyətin həyata keçirilməsidir.

Bu məqsədlə "Ekoloq" Ətraf Mühitin Qorunmasına Yardım İctimai Birliyi tərəfindən Bakı və regionlarda fəaliyyət göstərən özəl və dövlət klinikalarında tibbi tullantıların idarə olunması prosesinin monitorinqi aparılacaq. Aparılan monitorinqlərin nəticələrinə uygun olaraq hesabat sənədi hazırlanaraq dövlət orqanlarına, Parlamentə, Azərbaycanda fəaliyyət göstərən yerli və beynəlxalq qurumlara, KİV və İctimaiyyətə təqdim olunacaq. Eyni zamanda Bakı və regionlarda fəaliyyət göstərən özəl və dövlət klinikalarında tibbi tullantıların idarə olunması, bu sahədə yerli və beynəlxalq qanunlar və konvensiyalar mövzusunda təlimlər keçiriləcək. Təlimlər və monitorinqlər Beyləqan, İmişli, Saatlı və Şirvan rayonlarında aparılacaq.

**Məlahət**

# Tariflər yüksək, insanların gəlirləri aşağıdır

**Natiq Cəfərli:** "Belə ədalətsizlik aqressiyanın yaranmasına səbəb olur"

**Səməd Vəkil:** "Qanunvericiliyə əsasən bir dəfə xəbərdarlıq edildikdən sonra abonentlə bağlı müəyyən tədbirlər görülür"



**İmişlidə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin 4 saylı Regional Sukanal İdarəsinin əməkdaşı zorakılığa məruz qalıb. Bu barədə"Azərsu"dan məlumat verilib. Məlumata əsasən, hadisə İmişli şəhəri Sevil Qazıyeva küçəsi ev 6 ünvanında qeydə alınıb.**

Belə ki, abonent Taleh Zeynalova içməli su təchizatı xidmətlərindən istifadəyə görə yığılmış borcunun ödənilməsi barədə dəfələrlə xəbərdarlıq edilsə də, o, borcu ödəməkdən imtina edib. "Sudan istifadə qaydaları"nın tələblərinə əsasən su təchizatının dayandırılması ilə əlaqədar iş əmrinin icrasına başlanılıb."İmişli Sukanal" sahəsinin əməkdaşları həmin ünvana yaxınlaşaraq abonentə borcun ödənilməsinin vacibliyini bir daha izah ediblər. Lakin T.Zeynalov "İmişli Sukanal" sahəsinin istismarın təşkili və idarə edilməsinə nəzarət qrupunun mühəndisi Məhərrəmov Mustafa Umud oğlu ilə aqressiv davranıb. Onu ağır şəkildə təhqir edib və şəxsə fiziki təzyiq göstərib. Baş vermiş hadisəni "İmişli Sukanal" sahəsinin əməkdaşları aktlaşdırıb. M.Məhərrəmov tibbi ekspertizadan keçirilib və faktın araşdırılması üçün İmişli Rayon Polis Şöbəsinə müraciət olunub.

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Natiq Cəfərli bu barədə "Şərq"ə danışarkən bildirib ki, vətəndaşların aqressiv davranışlarının tutarlı səbəbləri var:**

"Tariflər yüksəkdir, insanların gəliri isə aşağıdır. Belə ədalətsizlik əhalidə aqressiyanın yaranmasına səbəb olur. Ədalətin bərpa olunmasına çalışmaq lazımdır".

N.Cəfərli vətəndaşların dövlət təchizatçı şirkətləri ilə bu cür davranmasının da düzgün olmadığını vurğulayıb. Onun sözlərinə görə, mövcud problemi zorakılıqla həll etməyə çalışmaq istənilən halda düzgün seçim deyil.

**Hüquqşünas Səməd Vəkil isə "Şərq"ə açıqlamasında normalda istehlakçının kommunal ödənişləri bir ay müddətində etməli olduğunu deyib:**

"Qanunvericiliyə əsasən bir dəfə xəbərdarlıq edildikdən sonra abonentlə bağlı müəyyən tədbirlər görülür".

**Günəş Mərd**

# "Körpəmi böyüdüm"

## Tünzalə Əliyeva Allahdan möhlət istəyir



**"Hər kəsə can sağlığı arzulayıram. Allah mənə bir balaca möhlət versin, körpəmi böyüdüm.**

Rəbbimdən başqa heç nə istəmirəm. Nə veribsə, qane olmuşam, şükür etmişəm".

"Şərq"in məlumatına görə, bu sözləri "Xəbər-Ətər" verilişinin qonağı olan əməkdar artist Tünzalə Əliyeva (Toppuş bacı) deyib.

*Qeyd edək ki, Əməkdar artist bir neçə ildir xərçəng xəstəliyi ilə mübarizə aparır.*

**Aygün Tahir**

# Kefi yaxşıdır

## Rəqsanənin qızı nişanlısı ilə fotosunu paylaşıb



**Müğənni Rəqsanə İsmayılovanın qızı Aysun İsmayılova paylaşım edib.**

"Şərq"in məlumatına görə, A.İsmayılova nişanlısının da yer aldığı fotonu "İnstagram" izləyiciləri ilə bölüşüb.

"Sevgililər gününü necə qeyd etdiniz? Sizcə,"Youtube" da vloq çəkək?"- deyə o qeyd edib.

**Aygün**

# "Qadında da günah olur"

## Xuraman: "Kişi evdən çıxdısa, sənin deyil"



**"Qadın bəzən o qədər acıdil, təkəbbürlü olur, bəzən özü öz əlləri ilə yoldaşını itələyir. Qadınlar, kişilərin telefonunu axtarmayın, axtarsanız tapacaqsınız. Özünüzü sevin. Onsuz da ideal insan yoxdur. Düşünürəm, ailədə daha çox kişinin sözü üstün olmalıdır. Çünki kişinin hakimiyyətini də tapdalamaq olmaz. Artıq o ailədən ailə olmaz. Çalışın, əsas pərdəni aradan götürməyin. Elə idarə edin ki, nə şiş yansın, nə də kabab".**

Bu sözləri müğənni Xuraman Şuşalı MTV-yə açıqlamasında deyib. Həyat yoldaşı Elçin Məmmədovdan danışan sənətçi bunları əlavə edib:

"Yoldaşımla çox gözəl dostuq. Bizim ailə həyatımız dostluqdan başlayıb. Ona görə də biz bir-birimizə güzəştə gedirik. O məni çox anlayır. Əlbəttə ki, ailədə daha çox kişinin sözü üstün olmalıdır.

Qadında da günah olur. Bəzi kişilərin qanı xarabdır. Qadın nə etsə də, gözəl də olsa, kişi evdən çıxdısa, sənin deyil. Qadınlar ailə quranda bilməlidir ki, kiminlə ailə qursun. Qısqancdırsa, ömrünün sonuna kimi eyni qalacaq. Elə şeylər var ki, dəyişilmir. Qadın var ki, deyir ərim 40 yaşa kimi qısqandı, sonra yox. Belə hallar da var. Ya qadın qocaldı deyə qısqanmır, ya da başı başqasına qarışır. Mənim həyat yoldaşımda qısqanclıq yoxdur. Büruzə də vermir. Arada deyirəm ki, bu məni niyə qısqanmır? Çünki arxayındır. Mən çox qısqancam, görürəm ki, özümə ziyan verirəm. Deyir, kişinin qısqanmağı halal, qadında isə haramdır. Qadın qısqansa təkəbbür, kişidə isə qeyrətdən irəli gəlir".

**Xuraman xanımlara məsləhət də verib:**

"Mən araşdırma etməyi sevirəm, zamanım olanda da psixoloq yanına gedirəm. Gərək axtarmayasan, axtarsan tapacaqsan. Ona görə özünüzü sevin, qiymət verin. Qarşı tərəfə də sevginizi elə miqdarda verin ki, nə o sizdən bezsin, nə də arxayın düşsün. Özünüzü, bir çiçək, sevdalı, baxımlı bilin. Ailədə pərdəni aradan götürməyin. Kişi də qadını o qədər sevməlidir ki, qadın ondan arxayın olmalıdır. İdeal insan yoxdur, axtarmayın. Həyat yoldaşınıza da ideal kimi baxanda çox pis əziyyət çəkəcəksiniz. Qadınlar, kişilərin telefonunu axtarmayın. Gələr qrupa şəkil düşər, evdə qırğın olar".

# ƏDV-ni "Kabinetim"də topla!

## Azercell-in "Kabinetim" tətbiqində "ƏDV Geri Al" xidmətindən istifadə mümkün oldu

**Abunəçilərinin rahatlığı üçün daha geniş imkanlar yaradan Azercell "Kabinetim" mobil tətbiqi vasitəsilə Azərbaycan telekom bazarında növbəti ilkə imza atdı! Belə ki, "Kabinetim" tətbiqinin istifadəçiləri artıq bu platformada "ƏDV Geri Al" xidmətindən də istifadə edə bilərlər.**

"ƏDV Geri Al" xidməti "Kabinetim" tətbiqinin kənar menyusunda yer alır. Xidmətdən istifadə üçün hansısa xüsusi səhifəyə daxil olmağa ehtiyac yoxdur. İstifadəçilər sadəcə "Əlavələr" menyusundan QR düyməsinə sürətli çıxış əldə edərək alış-veriş qəbzlərini skan edib ƏDV-ni geri ala bilərlər.

"Kabinetim"in təqdim etdiyi bu yeniliyin əsas özəlliyi ondan ibarətdir ki, "Kabinetim" istifadəçiləri yeni xidmət sayəsində ƏDV balansını dərhal Azercell nömrəsinin balansına köçürməklə, bu mobil tətbiqin təklif etdiyi bütün ödənişli xidmətlərindən yararlana bilərlər.

Azercell şirkəti "ƏDV Geri Al" xidmətini ABB ilə birgə layihə çərçivəsində reallaşdırır. Tətbiq daxilində bu xidmətlə bağlı məlumatlandırma ani ekran (push) bildirişləri şəklində həyata keçirilir. "Kabinetim" istifadəçiləri həm də mobil tətbiqin onlayn çat bölməsində "ƏDV Geri Al" xidməti ilə bağlı bütün suallara cavab əldə edə biləcəklər.




"ƏDV Geri Al" xidməti Azərbaycanda pərakəndə ticarət və ya iaşə müəssisələrindən əldə edilmiş mallara görə nağdsız qaydada ödənilmiş ƏDV-nin 15 faizinin, nağd qaydada ödənilmiş ƏDV-nin 10 faizinin geri qaytarılması layihəsidir.

Xatırladaq ki, bağlantını asanlaşdırmaqla abunəçilərinin həyatını daha da dolğun etməyi hədəfləyən Azercell "Kabinetim" xidməti üzərindən abunəçilərinə 24 saat ərzində nömrəyə onlayn nəzarət etmək imkanını yaradır. Azərbaycan, rus və ingilis dillərini dəstəkləyən "Kabinetim" tətbiqi vasitəsilə balansı artırmaq, tarif və internet paketlərini sifariş edib dəyişdirmək, bir çox xidmətləri aktiv və deaktiv etmək, onlayn çatda müştəri xidmətləri ilə dərhal əlaqə saxlamaq mümkündür. "Kabinetim" üzərindən Bookmate onlayn kitabxanasına, xarici dillər öyrənmək üçün Busuu proqramına, 200-dən çox kanala abunəlik verən NNTV, dünya üzrə 50 milyondan çox musiqi və minlərlə podkast bazası olan SberZvuk və digər tətbiqlərə qoşulmaq olar.

Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan çoxfunksional "Kabinetim" tətbiqini App Store, PlayStore və ya Huawei AppGallery-dən ödənişsiz olaraq yükləmək mümkündür.

### Elanlar

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Elçin Xanmurad oğlu Əhmədovun adına verilmiş 30.10.2019-cu il tarixli 1279 nömrəli (seriya № AA0001279) xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Əsədov Əfqan Eynulla oğluna məxsus Abşeron rayon Məmmədli kəndində yerləşən 1.0 ha torpaq sahəsi Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən Seriya RX, 0198734 saylı, reyestr nömrəsi 308013035256, qeydiyyat nömrəsi 1613014455, qeydiyyat tarixi 03.06.2013-cü il olan Çıxarış itdiyi üçün etibarsız sayılır.

Əzizova Günel İlqar qızına məxsus Bakı şəh., Bəsti Bağırova küç., ev 15 B, 27 saylı mənzilin Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən Seriya MA № 0386290 saylı, reyestr nömrəsi 011011004756-05301-093010, qeydiyyat nömrəsi 1112035203 olan Çıxarış itdiyi üçün etibarsız sayılır.

Əsədova Çimnaz Lazım qızına məxsus 1405187382 saylı VÖEN şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Texniki Universiteti nəzdində fəaliyyət göstərən Bakı Dövlət Rabitə və Nəqliyyat kolleci, Radiorabitə, radio verilişləri və televiziya fakültəsinin 4-cü kurs tələbəsi Ələkbərova Elyanə Natiq qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 477



## Əfsanə geri dönür

### "Qurdlar Vadisi" yenidən yayınlanıb

**Türkiyə televiziya tarixində 19 ildir unudulmaz dizilər sırasında ilk pillədəki yerini israrla qoruyub saxlayan "Qurdlar Vadisi" serialı YouTub kanalında HD formatında yenidən yayınlanıb.**

"Şərq" CNN Türk-ə istinadən xəbər verir ki, "Qurdlar Vadisi"nin ilk bölümü 15 yanvar 2003-cü ildə yayınlanmışdı. O gündən bu günə də serial Türkiyə və xarici ölkələrdə ən çox baxılan və bəyənilən seriallar siyahısında ilk pillədədir. Dizinin 19 ildən sonra yenidən YouTub kanalında HD formatında yayımlanması da izləyicilərin marağına səbəb olub və sosial mediada ən çox izlənən video olaraq böyük tamaşaçı sayı toplayaraq inanılmaz uğur əldə edib. Bu da dizinin illər keçməsinə rəğmən hələ də sevildiyini göstərir. "Qurdlar Vadisi"nin ilk bölümü 2 gün içində 250 min dəfədən artıq izlənib. Pərəstişkarlar dizinin yayımını "əfsanələr ölməz, görünüşünü dəyişdirir" ifadələri ilə qarşılayıb.

**Məlahət**

## Məhkəməlik oldular

### Şiddətə görə əri 3, özü isə 5 illik həbs oluna bilər





**Futbolçu Özer Hurmacı ilə həyat yoldaşı Mihriban Hurmacı məhkəməlik olub.**

Türkiyə mətbuatı xəbər verir ki, bir müddət əvvəl Mihriban həyat yoldaşının telefonunda başqa xanımlarla ismarışlarını gördüyü üçün aralarında mübahisə yaranmışdı. Cütlük biri-birini təhqir edib və daha sonra futbolçu xanımına şiddət göstərmişdi.

*Mihriban Hurmacı boşanmaq üçün məhkəməyə müraciət edib və şiddətə məruz qaldığı üçün də şikayətçi olub. Özer Hurmacı da təhdid olunduğu üçün məhkəməyə müraciət edib. Bu səbəbdən Özerin 3 il 6 ay, Mihribanın isə 5 il 6 ay həbsi tələb olunur.*

## Toy vaya döndü

### Dəhşətli hadisədə 13 nəfər ölüb



**Hindistanın Uttar Pradeş vilayətində toy mərasimi zamanı faciə baş verib.**

**Metbuat.az xəbər verir ki, toy zamanı üzəri beton lövhələrlə bağlanmış quyunun çökməsi nəticəsində 13 nəfər həyatını itirib. Onların arasında uşaqlar da var. 10 nəfərin isə yaralandığı bildirilir. Məlumata görə, quyunun dərinliyi 15 metrdən çox olub. Bildirilir ki, sakinlər betonlar üzərində əylənərkən, ağırlığa davam gətirməyərək, çöküb.**

## İlon Maskın şirkəti araşdırma üçün 8 meymunu öldürdü



**İlon Maska məxsus biotexnoloji firma olan "Neuralink" beyin çipi texnologiyasını sınaqdan keçirərkən səkkiz meymunu öldürdüyünü etiraf edib.**

**Metbuat.az xəbər verir ki, şirkət tədqiqatlarda heyvanların istifadəsinin müdafiə edib, amma heyvanlara əziyyət vermələri ilə bağlı iddiaları rədd edib.**

**İlon Mask əlavə edib ki, bu kimi sınaqlarının keçirilməsi üçün heyvanlar üzərində sınaqdan keçirilməlidir.**

## İnternetdə tanış olmuşdular

### 16 yaşlı nişanlı qızın boğazını kəsdi



**Türkiyənin Girəsun vilayətində dəhşətli hadisə baş verib. Metbuat.az xəbər verir ki, 21 yaşlı Hüseyin Can adlı şəxs, sevgilisi 16 yaşlı qızın nişanlandığını eşidəndə qəzəblənib. O, Sıla Şentürkün evinə gəlib və onun boğazını kəsərək qətlə yetirib. Gənc, valideynlərin evdə olmadığı vaxt qızın evinə gələrək hadisəni törədib. Evdə qızın nənəsi olub. Nənə hadisə barədə qonşulara məlumat verib. Polisin axtarışları nəticəsində gənc saxlanılıb.**

**Məlumata görə, Hüseyin Canla Sıla Şentürk internetdə tanış olublar. Bir müddət sonra 21 yaşlı gənc 16 yaşlı qızı qaçırıb. Lakin qızın valideynlərinin şikayətindən sonra qız tapılaraq ailəsinə təhvil verilib. Ardınca valideynlər qızı məcburi şəkildə başqasına nişanlayıb.**





# Fəhləlikdən modelliyə

## 60 yaşlı kişi sosial mediada fenomenə çevrilib

**Təmiz geyim, bahalı ayaqqabılar və səliqəyə salınmış saç-saqqal... Məhz bunlar 60 yaşlı hindli Mammikanı məşhurlaşdırdı. CNN Türk xəbər verir ki, 60 yaşlı hindli hazırda sosial mediada fenomenə çevrilib. Günəmuzd fəhlə işləyən, çörək pulu qazanmaq üçün hər cür ağır, çirkli işlərə razılaşan Mammikanın başına, nağıllardakı kimi əsl tale quşu qonub.**

Hindistanın cənub-qərbindəki Kerala əyalətinin sakini Mammika fəhləliklə məşğul olub. Günlərin birində isə o, fotoqraf Shareek Vayalilin dqqətini çəkib. Fotoqraf Mammikaya yaxınlaşaraq ona yerli ayaqqabı markasının siması olmağı təklif edib. Və bunun müqabilində yüksək məbləğdə qazanc əldə edəcəyini deyib. Mammika onu necə bir məşhurluq gözlədiyinin fərqinə varmadan razılaşıb. Mammika marka reklamı üçün çəkilişlərə dəvət edilib. Əynindəki milli peştamal *(hindli kişilərin beldən aşağı sarıdığı tikişsiz, düyməsiz pambıq parça)* və nimdaş köynək çıxarılıb, saçı, saqqalı səliqəyə salınıb. Təmiz, bahalı kostyum və marka ayaqqabı geyindirilib. Mammika bam-başqa birisinə dönüşüb. Və kameralar önünə keçib. Mammikanın əvvəlki və hazırkı halını əks etdirən fotolar sosial mediada paylaşıldıqda görənlərin çoxu onu Hindistanın məşhur aktyor və bəstəkarı Vinayakana bənzədib. Bununla da Mammikanın şöhrəti ölkə sərhədlərini aşıb. Mammikanı bəyənənlərin sayı hər gün artmaqdadır. Qəribə burasıdır ki, hindli kişi nəinki ölkədə, hətta ölkədən kənarda da məşhurlaşsa da, yenə fəhləliklə məşğuldur. Kərpickəsən kişi kimi, "kərpic kəsməkdə" davam edir.

**Məlahət**







# Bəlğəmdən əziyyət çəkirsinizsə...

## Asan müalicə vasitələri və üsulları var

**Keçirdiyi xəstəlik soyuqdəymədir, qripdir, yoxsa koronavirus, ya onun yeni törəməsi "Omicron"dur, nədir, müəyyənləşdirə bilməyənlər burun tutulması, baş ağrısı, öskürək, bəlğəmdən də əziyyət çəkirlər. Xalq təbabətində bəlğəmgətirici bir çox vasitələr mövcuddur.**

Türkiyənin Tibbi və Ətirli Bitkilər üzrə mütəxəssisi Ayhan Ercan bəlğəmi sinədən "söküb atmağın" yollarını sadalayıb. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, bu vasitələrdən biri səhləb bitkisidir. Bu bitkinin köklərindən əldə edilən təbii səhləb tozu südlə qarışdırılır. Bu qarışıq boğazı nəmli saxlayaraq bəlğəmi yumşaldır və xaricə çıxarılmasını yüngülləşdirir. Mütəxəssis məsləhət görür ki, apteklərdə satılan, süni ətir, nişasta, süd tozu qarışıqlı səhləb tozunu almaq məsləhət deyil. Təbii səhləb tozu və təbii südə üstünlük verilməlidir. Bu qarışıq hamilə qadınlar, körpəsini əmizdirən analar və uşaqlar üçün tamamilə təhlükəsizdir. Səhləb tozlu qarışığı südə darçın və ya 1 çay qaşığı zəncəfil əlavə etməklə də içmək olar.

Bəlğəmgətirici digər vasitə okalipsus, adaçayı, kəklikotu və nanı yağı qarışığından alınan məlhəmdir. Bu bitkilər qədim zamanlardan bəlğəmgətirici vasitə kimi tanınır. Bu yağlardan mənzildəki havanı nəm saxlamaq üçün də istifadə edilir. 1 kasa suyun içinə bu yağlardan hər hansı birini damızdırmaqla mənzildə radiator və sobaların qurutduğu havanı təravətli və nəm saxlamaq olar. Bəlğəmgətirici vasitələrdən ən güclüsü həm də təbii baldır. 500 qram balın içinə 1 çay qaşığı kəklikotu yağı, 10 damcı nanə, 10 damcı okalipsus və 10 damcı da adaçayı yağı əlavə edilir. Gün ərzində - səhər və axşam 1 çay qaşığı qəbul edilir. 5 yaşdan yuxarı uşaqlara isə gündə 1 dəfə,1 çay qaşığı vermək məsləhətdir. Mütəxəssis qeyd edir ki, bu məcunu birdəfəyə udmaq yox, ağız boşluğunda saxlayıb əridərək yavaş-yavaş udmaq lazımdır. Öskürək və bəlğəmə qarşı həmçinin quru, kök zəncəfilli kəklikotulu çay da xeyirlidir. Mütəxəssis xüsusilə zəncəfilin quru və köklü formasını məsləhət görür. Çünki bu zəncəfildə faydalı maddələr üyüdülmüş zəncəfilə nisbətən daha çoxdur. Hindistanlılar min illərdir qrip və soyuqdəyməyə qarşı zəncəfilli-ballı çaydan istifadə edirlər.

**Məlahət**

## Ürək-damar xəstəliyi yaradır

### Kardioloq spred yağ yeməyi qadağan edir



**Kardioloq Anna Koreneviç insanlara imtina etməli olduqları qidanı açıqlayıb.**

Medicina.az xəbər verir ki, ürək damarlarını tıxanayn xolesterin kərə yağında daha çox oduğu üçün bir çox xəstələr zeytuna, spled yağa keçir. Bunu bəzən həkimlər də tövsiyə edir.

Kərə yağına analoq olan süni spred yağ süddən və bitki yağlarının qarışımından hazırlanır.

Əvəzedici yağın yağlılıq dərəcəsi 39 faiz olur.

Kardioloq Anna Koreneviç öz kanalında ürək-damar xəstələri və qanında xolesterin yüksək olanlara spred yağ yeməyi qadağan edib.

"Bu tamamilə faydasız yağdır. Spred yağ mahiyyət etibari ilə transyağdır, bu yağ kərə yağından dəfələrlə zərərlidir.

Ümumiyyətlə, trans yağ, yağ əvəzedicisi və spredi həyatınızdan çıxarın.

Eləcə də yarımfabrikatlar, tərkibində spred yağ olan qidaları da yeməyin. Adətən belə qidalar daha ucuz olur. Bunun əvəzində 10 qram təmiz fermer kərə yağı yemək daha məsləhətdir.

*Qeyd edək ki, spred yağlar marketlərdə kifayət qədərdir, bu yağlarda bitki və süd yağları qarışdırılır. Yağların üzərində spled spred sözlərinə rast gələ bilərsiz.*

## Yaponlar uşaq-robot hazırladılar

### Robot qəzəb, ikrah, qorxu, kədər, təəccüb və xoşbəxtliyi nümayiş etdirir



**Yaponiyanın "RIKEN Guardian Robot Project" şirkətinin mütəxəssisləri uşaq simasına malik Nickla adlı robot hazırlayıblar.**

Oxu.az xəbər verir ki, o, insanın altı əsas duyğusunu əks etdirə bilir.

Robot qəzəb, ikrah, qorxu, kədər, təəccüb və xoşbəxtliyi nümayiş etdirir. Android- uşaq inandırıcı emosiyalar yaratmaq üçün yalançı əzələlərə malikdir. 29 xüsusi pnevmatik ötürücü səssiz hava təzyiqi hesabına işləyir, bunun sayəsində süni əzələlər fəaliyyət göstərir.

Yapon mütəxəssisləri əmindirlər ki, gələcəkdə bu tipli robotlar sosial psixologiya sahəsində, məsələn, xəstəxanalarda yaşlı insanlarla qarşılıqlı əlaqə üçün istifadə olunacaq.